# YENİ AZƏRBAYCAN

3 oktyabr 2025-ci il, cümə
№ 178 (7005)
Qiyməti 60 qəpik

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.




Milli azadlıqdan şirin nemət yoxdur!

## Andına sadiq qalan Lider

Bax səh. 3




## Prezidentin Kopenhagen görüşləri














## 5 yaşlı QƏLƏBƏ TVİTİ

İlham Əliyev
@azpresident

Bu gün #Azərbaycan ordusu #Madagizdə Azərbaycan bayrağını qaldırdı. Madagiz bizimdir. #Qarabağ Azərbaycandır!

Translate Tweet

7:20 PM · Oct 3, 2020 · Twitter for iPhone

İlham Əliyev
@azpresident

2020-ci il oktyabrın 3-dən #Madagizin tarixi adını bərpa edirəm. Bundan sonra #Suqovuşan adlandırılır. #Qarabağ #Azərbaycandır!

Translate Tweet

8:42 PM · Oct 3, 2020 · Twitter for iPhone

İlham Əliyev
@azpresident

Bu gün #Azərbaycan #Ordusu Tərtər rayon Talış kəndini, Cəbrayıl rayon Mehdili, Çaxırlı, Aşağı Maralyan, Şəybəy və Quycaq kəndlərini, Füzuli rayonu Aşağı Əbdürrəhmanlı kəndini azad etmişdir.

#Qarabağ #Azərbaycandır!

Translate Tweet

10:31 PM · Oct 3, 2020 · Twitter for iPhone

## "Avropa Siyasi Birliyi"nin 7-ci Zirvə toplantısında...



Bax səh. 3

## Siyasi anlaşmadan qaynaqlanan strateji əməkdaşlıq...

Bax səh. 4

## Ölkəmizin dəstəyi yüksək qiymətləndirilir

Bax səh. 2

## Trampın sülh planına böyük dəstək

Bax səh. 6

## ABŞ-Rusiya danışıqları: yeni əsrin sülh imkanı, yoxsa...



Bax səh. 7

## Daha sərt məhdudiyyətlər...




Bax səh. 6

# Prezident və birinci xanım Danimarkada...





Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 1-də Danimarkanın Baş naziri Mette Frederiksenin və Avropa İttifaqı Şurasının Prezidenti Antonio Koştanın dəvəti ilə "Avropa Siyasi Birliyi"nin 7-ci Zirvə toplantısında iştirak etmək üçün bu ölkəyə işgüzar səfərə gəlib.

AZƏRTAC xəbər verir ki, Kopenhagen şəhərinin beynəlxalq aeroportunda Prezident İlham Əliyevi və birinci xanım Mehriban Əliyevanı rəsmi şəxslər qarşılayıblar.

***

Oktyabrın 1-də Kopenhagendə Danimarka Kralı X Frederik və Kraliçası Meri Elizabetin adından ziyafət verilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak edib.




# 2 oyunda 2 parlaq qələbə...

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sosial media hesablarında "Qarabağ" futbol klubunun qələbəsi ilə bağlı paylaşım edib.

Paylaşımı təqdim edirik:

"Danimarka çempionu "Kopenhagen" futbol klubu üzərində inamlı qələbə qazanması münasibətilə "Qarabağ" futbol klubunu, bütün Azərbaycan futbol ictimaiyyətini ürəkdən təbrik edirəm.

Planetin ən güclü klub turnirinin əsas mərhələsində 2 oyunda 2 parlaq qələbə əldə edən "Qarabağ" dünya futbolunun nəhəngləri ilə ilk pillələri bölüşməklə xalqımızı qürurlandırmaqda davam edir".

# Ölkəmizin dəstəyi yüksək qiymətləndirilir



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Kopenhagendə Moldova Respublikasının Prezidenti Maya Sandu ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı Moldovada keçirilmiş parlament seçkilərində Maya Sandunun rəhbərlik etdiyi hakim Fəaliyyət və Həmrəylik Partiyasının qələbə qazanması münasibətilə təbriklərini çatdıraraq, bu seçkilərin Moldova xalqının iradəsini əks etdirdiyini dedi.

Moldova Prezidenti təbriklərə görə təşəkkürünü ifadə etdi. O da öz növbəsində Vaşinqtonda Ermənistanla Azərbaycan arasında Amerika Birləşmiş Ştatlarının şahidliyi ilə sülh gündəliyi üzrə əldə olunmuş nəticələr münasibətilə Prezident İlham Əliyevi təbrik etdi.

Təbriklərə görə minnətdarlığını bildirən dövlətimizin başçısı Ermənistanla Azərbaycan arasında sülh gündəliyi ilə bağlı əldə olunmuş nəticələrin tarixi əhəmiyyət kəsb etdiyini bildirdi.

Görüşdə ikitərəfli münasibətlərimizin inkişaf perspektivlərinə dair fikir mübadiləsi aparıldı, xüsusilə də enerji sahəsində əməkdaşlıq üçün geniş imkanların olduğu vurğulandı.

President Maya Sandu Moldovanın xüsusilə enerjiyə ehtiyac duyduğu zamanda Azərbaycanın göstərdiyi dəstəyin yüksək qiymətləndirildiyini qeyd etdi.

# Azərbaycan-Avropa İttifaqı: Əlaqələrin yeni səviyyəyə qaldırılması üçün yaxşı imkanlar var



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin oktyabrın 2-də Kopenhagendə Avropa İttifaqı Şurasının Prezidenti Antonio Koşta və Avropa Komissiyasının Prezidenti Ursula Fon der Lyayen ilə görüşü olub.

AZƏRTAC xəbər verir ki, görüşdə Antonio Koşta və Ursula Fon der Lyayen dövlətimizin başçısını Ermənistanla Azərbaycan arasında sülh gündəliyi ilə əlaqədar Vaşinqtonda əldə edilmiş nailiyyətlər münasibətilə təbrik etdilər, bunun regionda davamlı sülhün təmin olunmasına xidmət edəcəyinə ümidvarlıqlarını bildirdilər. Antonio Koşta və Ursula Fon der Lyayen sülhün dəstəklənməsi üçün bundan sonra da səylərini davam etdirəcəklərini bildirdilər. Onlar, həmçinin regionda nəqliyyat bağlantılarının inkişafının Avropa İttifaqı üçün mühüm istiqamət olduğunu dedilər.

Görüşdə Azərbaycanın Avropa İttifaqının enerji təhlükəsizliyində oynadığı rola toxunuldu, 2022-ci ildə Avropa İttifaqı ilə Azərbaycan arasında enerji sahəsində strateji tərəfdaşlığa dair əldə edilmiş razılaşmaya uyğun olaraq Azərbaycanın Avropanın qaz bazarına ixracının həcminin artdığı bildirildi.

Dövlətimizin başçısı təbriklərə görə təşəkkürünü bildirdi və sülh gündəliyi ilə bağlı nailiyyətlərin bütün region, o cümlədən Ermənistan və Azərbaycan üçün tarixi əhəmiyyət kəsb etdiyini dedi. Prezident İlham Əliyev həm Ermənistanın, həm də Azərbaycanın artıq sülh şəraitində yaşamağa uyğunlaşdıqlarını qeyd etdi və ölkəmizin sülh gündəliyinin irəli aparılması üçün səyləri davam etdirəcəyini vurğuladı.

Prezident İlham Əliyev hazırda Avropanın 10, o cümlədən Avropa İttifaqının 8 üzv dövlətinin Azərbaycan qazını aldığını bildirdi və bunun Avropa İttifaqının enerji təhlükəsizliyinə mühüm töhfə olduğunu dedi.

Dövlətimizin başçısı Azərbaycanın Orta Dəhlizin inkişafında oynadığı rolu qeyd edərək, ölkəmizdə nəqliyyat-logistika infrastrukturunun inkişaf etdirilməsi istiqamətində görülən işlərdən danışdı və hazırda Mərkəzi Asiyadan Azərbaycan ərazisindən nəqliyyat daşımalarının həcminin artdığını bildirdi.

Görüşdə Azərbaycanla Avropa İttifaqı arasında əlaqələrin inkişaf etdirilməsi və yeni səviyyəyə qaldırılması üçün yaxşı imkanların olduğu vurğulandı.

# Vaşinqton Bəyannaməsinin icrası ilə bağlı fikir mübadiləsi aparılıb



Oktyabrın 2-də Kopenhagendə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Ermənistan Respublikasının Baş naziri Nikol Paşinyan ilə görüşü olub.

AZƏRTAC xəbər verir ki, görüşdə tərəflər ABŞ Prezidenti Donald Trampın təşəbbüsü ilə keçirilmiş Vaşinqton Sülh Sammitində əldə olunan razılaşmaların əhəmiyyətini vurğulayıblar. Onlar Ermənistan və Azərbaycan arasında sülhün daha da möhkəmləndirilməsi istiqamətində səy göstərməyə hazır olduqlarını bir daha təsdiq ediblər.

Azərbaycan Prezidenti və Ermənistanın Baş naziri regionda nəqliyyat kommunikasiyalarının faydalarını vurğulayıb, Azərbaycan ərazisində infrastrukturun inkişafı ilə bağlı cari işlərin gedişatı və Ermənistan ərazisində TRIPP layihəsini müzakirə edib, Vaşinqton Bəyannaməsinin icrası ilə bağlı fikir mübadiləsi aparıblar.

Tərəflər bu xüsusda ATƏT-in Minsk prosesinin və onunla əlaqəli strukturların ləğv olunması ilə bağlı yekdilliklə qəbul edilmiş qərarı alqışlayıblar.

Görüşdə tərəflər etimad quruculuğu tədbirlərinin bundan sonra da həyata keçirilməsinin vacibliyini vurğulayıb və təmasları davam etdirmək barədə razılığa gəliblər.

# Ukrayna Azərbaycana təşəkkür edib

Oktyabrın 2-də Kopenhagendə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Ukrayna Prezidenti Volodimir Zelenski ilə görüşü olub.

AZƏRTAC xəbər verir ki, Ukrayna Prezidenti Ermənistanla Azərbaycan arasında sülh gündəliyi ilə bağlı Vaşinqtonda əldə olunmuş nəticələr münasibətilə dövlətimizin başçısına təbriklərini çatdırdı.

Təbriklərə görə minnətdarlığını bildirən Prezident İlham Əliyev sülh gündəliyinin irəliyə aparılması istiqamətində atılmış addımların tarixi əhəmiyyət kəsb etdiyini dedi. Dövlətimizin başçısı regionda davamlı sülhün təmin olunması üçün Azərbaycanın bundan sonra da səylərini davam etdirəcəyini vurğuladı.

Görüşdə Azərbaycanın Ukraynaya humanitar dəstəyi, xüsusilə də ukraynalı uşaqlara göstərilən diqqət və qayğı qeyd olundu. Ukrayna tərəfi buna görə təşəkkürünü bildirdi.

Söhbət zamanı iki ölkə arasında enerji sahəsində əməkdaşlıq məsələlərinə dair fikir mübadiləsi aparıldı.



# Azərbaycan-Fransa əlaqələri müzakirə olunub

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin oktyabrın 2-də Kopenhagendə Fransa Respublikasının Prezidenti Emmanuel Makron ilə görüşü olub.

AZƏRTAC xəbər verir ki, Fransa Prezidenti Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşması və sülh gündəliyi ilə əlaqədar nəticələr münasibətilə dövlətimizin başçısını təbrik etdi.

Təbriklərə görə təşəkkürünü bildirən Prezident İlham Əliyev Azərbaycanla Ermənistan arasında Amerika Birləşmiş Ştatları Prezidentinin şahidliyi ilə Vaşinqtonda əldə olunmuş nəticələrin regional sülh gündəliyinin irəli aparılması üçün tarixi əhəmiyyət kəsb etdiyini vurğuladı. Dövlətimizin başçısı hazırda sülh gündəliyinin irəliyə aparılması üçün müxtəlif istiqamətlər üzrə qarşılıqlı fəaliyyətin həyata keçirildiyini qeyd etdi.

Görüşdə Azərbaycanla Fransa arasında əlaqələrin mövcud vəziyyəti və perspektivlərinə dair fikir mübadiləsi aparıldı.



# Niderland şirkətləri Azərbaycanda uğurla fəaliyyət göstərir

Oktyabrın 2-də Kopenhagendə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Niderland Krallığının Baş naziri Dik Sxof ilə görüşü olub.

AZƏRTAC xəbər verir ki, Niderlandın Baş naziri Ermənistanla Azərbaycan arasında sülh gündəliyinin irəliyə aparılması ilə bağlı Vaşinqtonda əldə olunmuş nəticələrlə əlaqədar dövlətimizin başçısına təbriklərini çatdıraraq, bunun mühüm əhəmiyyət daşıdığını vurğuladı.

Prezident İlham Əliyev də öz növbəsində Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Trampın şahidliyi ilə Ermənistanla Azərbaycan arasında imzalanmış Vaşinqton Bəyannaməsinin və Ermənistanla Azərbaycan arasında münasibətlərin normallaşdırılmasına dair sənədin regional sülh baxımından əhəmiyyətinə toxundu, iki ölkə arasında artıq sülhün mövcud olduğunu qeyd etdi.

Görüşdə Niderland şirkətlərinin Azərbaycanda uğurla fəaliyyət göstərdiyi vurğulandı, bunun gəmiçilik, limanların qurulması, elektrik sənayesi, kənd təsərrüfatı, şəhərsalma və digər sahələri əhatə etdiyi qeyd olundu.

Söhbət zamanı Azərbaycanla Niderland arasında beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq məsələlərinə toxunuldu.

Niderlandın Baş naziri ölkəmizdə COP29-un uğurla keçirilməsi münasibətilə təbriklərini çatdırdı və həmin tədbir çərçivəsində beynəlxalq iqlim gündəliyi ilə əlaqədar ciddi nəticələrin əldə olunduğunu qeyd etdi.



# Azərbaycan Prezidenti İtaliya Nazirlər Şurasının sədri ilə görüşüb

Oktyabrın 2-də Kopenhagendə "Avropa Siyasi Birliyi"nin 7-ci Zirvə toplantısı çərçivəsində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin İtaliya Respublikası Nazirlər Şurasının sədri Ciorcia Meloni ilə görüşü olub.

AZƏRTAC xəbər verir ki, görüşdə Azərbaycanla İtaliya arasında münasibətlərin hərtərəfli strateji tərəfdaşlıq müstəvisində inkişaf etdiyi bildirildi və bu xüsusda bir neçə gün əvvəl İtaliya Prezidentinin Azərbaycana uğurlu rəsmi səfəri, səfər çərçivəsində Bakıda İtaliya-Azərbaycan Universitetinin ilk tədris korpuslarının açılışı qeyd olundu.

Söhbət zamanı Azərbaycan ilə İtaliyanın enerji sahəsində uğurlu əməkdaşlığına toxunuldu, ölkəmizin İtaliyanın enerji təhlükəsizliyinə töhfəsi vurğulandı. Ölkələrimiz arasında investisiyalar, mədəniyyət, humanitar və digər sahələrdə əməkdaşlığın inkişafından məmnunluq ifadə olundu.



# "Avropa Siyasi Birliyi"nin 7-ci Zirvə toplantısında...








Oktyabrın 2-də Danimarkanın paytaxtı Kopenhagen şəhərində "Avropa Siyasi Birliyi"nin 7-ci Zirvə toplantısının açılış mərasimi keçirilib.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak edib.

Danimarkanın Baş naziri Mette Frederiksen Azərbaycan Prezidenti İlham Əliyevi, Zirvə toplantısında iştirak edən digər dövlət və hökumət başçılarını qarşıladı.

Qeyd edək ki, "Avropa Siyasi Birliyi"nin 7-ci Zirvə toplantısında ümumilikdə 50-yə yaxın ölkədən dövlət və hökumət başçıları iştirak edirlər.

Plenar iclaslarda və ondan sonra keçiriləcək dəyirmi masalarda Avropadakı ümumi təhlükəsizlik vəziyyəti, Rusiya-Ukrayna müharibəsi, iqtisadi təhlükəsizlik, miqrasiya, ənənəvi və Hibrit təhlükələr kimi mövzular müzakirə olunur.

"Avropa Siyasi Birliyi" təhlükəsizlik, iqtisadi sabitlik, demokratik idarəetmə kimi sahələrdə əməkdaşlığı gücləndirmək məqsədilə həm Avropa İttifaqı daxilində, həm də ondan kənarda kiçik və böyük ölkələr arasında siyasi-iqtisadi koordinasiyanı təşviq etməyə yönəlmiş hökumətlərarası platformadır. Birliyin məqsədi ümumi maraq doğuran məsələlərin həlli üçün siyasi dialoqu və əməkdaşlığı inkişaf etdirmək, Avropa qitəsinin təhlükəsizliyini, sabitliyini və rifahını gücləndirməkdir.

***

Oktyabrın 2-də Kopenhagendə "Avropa Siyasi Birliyi"nin 7-ci Zirvə toplantısının açılış plenar sessiyası keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak edib.

Sonra tədbirin iştirakçıları birgə foto çəkdiriblər.

# Andına sadiq qalan Lider

**Tarixin bu günündə - 1993-cü il oktyabrın 3-də böyük siyasətçi Heydər Əliyev müstəqil Azərbaycana ilk dəfə Prezident seçilib. Bu, sıradan bir seçki deyildi və ölkəmizin, xalqımızın taleyi baxımından müstəsna önəm daşıyırdı. Buna görə də həmin gün bütün ölkə boyunca seçki məntəqələrində böyük qələbəlik yaşanıb. İnsanlar səhər tezdən seçki məntəqələrinə, sözün əsl mənasında, axın ediblər. Seçkilərin nəticələri isə xalqın arzuladığı kimi olub. Belə ki, yüksək seçici fəallığı şəraitində baş tutan seçkilərdə səslərin 98 faizdən çoxu (98.84 faiz ) məhz böyük siyasətçi Heydər Əliyevin lehinə verilib. Bu, seçicilərin Heydər Əliyevə inamının, rəğbətinin ifadəsi idi. Xalq səsini Ona verməklə bir daha təsdiqləmişdi ki, Azərbaycanı idarə etməyə Heydər Əliyevdən başqa heç kim layiq deyil.**







## Müstəqilliyimizin anarxiya mərhələsi

Ali Sovet 1991-ci il oktyabrın 18-də "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Konstitusiya Aktını qəbul edib. Bu, tarixi bir qərar idi. Beləliklə, Azərbaycan XX yüzillikdə ikinci dəfə müstəqilliyinə qovuşub.

Lakin müstəqilliyi qorumaq onu əldə etməkdən daha çətindir. Heydər Əliyevin aforizmə çevrilən bu fikri Azərbaycanın timsalında da öz təsdiqini tapıb. Heydər Əliyevin 1993-cü ilin yayında ikinci dəfə Azərbaycanın siyasi rəhbərliyinə gəlməsi əslində bir xilaskarlıq missiyası idi. O dövrə qısa ekskurs edək. Ötən əsrin doxsanıncı illərinin əvvəllərində Azərbaycanda yaşanan hadisələri təhlil etdikdə istər-istəməz respublikamızın XX yüzillikdə ikinci dəfə qazandığı müstəqilliyinin yenidən itirilməsi təhlükəsindən danışmaq məcburiyyətində qalırıq. 1992-ci ilin yazında respublikamızda qanuni hakimiyyəti zorla devirərək iqtidara gələn AXC-"Müsavat" cütlüyü cəmi bir il ərzində Azərbaycanı böyük fəlakətin - vətəndaş qarşıdurmasının astanasına gətirib çıxartmışdı. Hadisələr elə cərəyan edirdi ki, kövrək müstəqilliyimizin əldən getməsi tam real idi. Gəncədə ilk qardaş qanı axıdılmışdı. Eyni zamanda, ölkədəki xaos, anarxiya mühitini bir fürsət kimi dəyərləndirən Ermənistan havadarlarının dəstəyi ilə işğalçılıq siyasətinin miqyasını genişləndirərək yeni-yeni ərazilərimizi öz nəzarətinə keçirirdi...

Müstəqilliyimizin anarxiya, xaos dönəminin ən ağrılı və narahatlıq doğuran məqamlarından biri də həmin dövrdə Prezident vəzifəsini daşıyan AXC sədri Əbülfəz Əliyevin (Elçibəy) qeyri-adekvat davranışları idi. Atdığı hər addımda, aldığı hər qərarda aydın şəkildə görünürdü ki, o, ölkəni idarə etməyə qadir deyil. Prezident Əbülfəz Əliyev iyunun 17-dən 18-nə keçən gecədə hamını, necə deyərlər, şoka salan hərəkətə yol verib- qəfildən yoxa çıxıb. Sonradan onun yeri bəlli olub- dövlət başçısı müvafiq qurumların təmsilçilərini məlumatlandırmadan Naxçıvan Muxtar Respublikasının Ordubad rayonundakı Kələki kəndinə üz tutub və orada yaşamağa qərar verib.

Ölkə çətin vəziyyətdə olduğu bir vaxtda dövlət başçısının bu cür qeyri-ciddi davranmasına hansı qiyməti vermək olar? Sonradan Ali Sovetin Sədri Heydər Əliyev dəfələrlə Prezidentin Bakıya gəlib vəzifəsini yerinə yetirməsinə çağırış etsə də, Əbülfəz Elçibəy buna məhəl qoymayıb. O, özüsəyağı şəkildə bəyan edib ki, dövləti Kələkidən idarə edəcək. Yeri gəlmişkən, AXC-"Müsavat" iqtidarında təmsil olunan ayrı-ayrı nazirlər, icra başçıları da oxşar qeyri-ciddi davranışlar sərgiləyiblər. Onlar məsuliyyətsizcəsinə tutduqları vəzifələri özlərinin işlətdiyi ifadə ilə desək, dondurublar...

## Heydər Əliyevin xilaskarlıq missiyası

Keçmiş ittifaq rəhbərliyində tutduğu bütün vəzifələrdən istefa verən Heydər Əliyev 1990-cı ildə Moskvadan Bakıya qayıtmaq məcburiyyətində qaldı. Lakin imperiya nökərləri-bəhs olunan dövrdə Azərbaycanın rəhbərliyində təmsil olunan şəxslər Heydər Əliyevin Bakıya qayıdışını kresloları üçün təhlükə hesab edərək Onun paytaxtda qalmasını əngəllədilər. Heydər Əliyev doğulduğu Naxçıvana üz tutdu və burada insanlar Onu böyük sayğı ilə qarşıladılar. Həmin ilin payızında Heydər Əliyev Babək rayonunun Nehrəm kəndindən Azərbaycan Respublikasının Ali Sovetinə deputat seçildi. O, eyni zamanda, Naxçıvan Ali Sovetinə də deputat seçilmişdi. Muxtar Respublikanın Ali Sovetinin seçkilərdən bir qədər sonra-17 noyabr 1990-cı il tarixində çağrılan sessiyasına sədrlik Heydər Əliyevə həvalə olundu. Sessiyada Onun təşəbbüsü ilə Naxçıvan Ali Sovetinin adı dəyişdirilərək Naxçıvan Respublikasının Ali Məclisi adlandırılması haqqında qərar çıxarıldı, Azərbaycan Xalq Cümhuriyyətinin o vaxtlar çoxlarının tanımadığı üçrəngli bayrağı Naxçıvan Ali Məclisində qaldırıldı.

Tale elə gətirdi ki, həmişə Azərbaycanın müstəqilliyini arzulayan, bütün şüurlu fəaliyyətini bu istiqamətdə quran Heydər Əliyev respublikamızın ötən əsrin 90-cı illərinin əvvəllərində ikinci dəfə əldə etdiyi müstəqilliyini qorumaq missiyasını da elə Özü yerinə yetirdi. AXC-"Müsavat" iqtidarının diletant siyasətini qəbul etməyən, yuxarıda təsvir etdiyimiz xaosdan, anarxiyadan bezən xalq üzünü Ona tutaraq Naxçıvandan Bakıya gəlməsini, ölkənin siyasi rəhbərliyinə qayıtmasını təkid etdi. Heydər Əliyev çətin seçim qarşısında idi. Başqası olsaydı, həmin xaotik vəziyyətdə həyatını və karyerasını təhlükəyə atmaqdan çəkinərək suların durulmasını gözləyərdi. Ancaq söhbət Heydər Əliyevdən gedirdi. Çətinliklərlə üzləşən xalqı Ona üz tutmuşdu, güvənmişdi. O, xalqın güvənini, inamını qırılmağı Özünə rəva görə bilməzdi. Bilmədi də. Bakıya gəlib respublikanın idarəçilik sükanının arxasına keçməyə razılıq verdi. Heydər Əliyev iyunun 9-da Naxçıvandan Bakıya gəldi və iyunun 15-də Azərbaycan Respublikası Ali Sovetinin sədri seçildi. Bir qədər sonra isə O, Milli Məclisin qərarı ilə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirməyə başladı. Və nəhayət, 1993-cü il 3 oktyabr tarixində ölkədə keçirilən prezident seçkilərində inamlı qələbə qazandı.

## Xaosdan sabitliyə və inkişafa doğru

Seçkilərin qalibi olan Heydər Əliyev 1993-cü il oktyabrın 10-da dövlətə və xalqa sədaqət andı içərək Prezident kimi fəaliyyətə başladı. O, andiçmə mərasimindəki nitqində deyib: "Bu gün mənim üçün tarixi, əlamətdar bir gündür. Mənə göstərilən bu böyük etimada görə Azərbaycan vətəndaşlarına, Azərbaycan xalqına hörmətimi, məhəbbətimi bildirir və əmin etmək istəyirəm ki, həyatımın sonuna qədər xalqıma sədaqətlə xidmət edəcək və bütün fəaliyyətimi Azərbaycan Respublikasının gələcək inkişafına sərf edəcəyəm".

Heydər Əliyev bütün varlığı ilə andına sadiq qaldı. O,vaxt itirmədən Azərbaycanın sabahı, müstəqilliyimizin əbədiyaşarlığı üçün müstəsna önəm daşıyan böyük işlərin təməlini qoydu. İlk növbədə ölkədə anarxiyanın ram edilməsinə, vahid komandanlığa tabe olan ordunun formalaşdırılmasına başlanıldı. Dövlətçiliyin möhkəmlənməsini hədəfləyən zəruri qərarlar imzalandı. İslahatların anonsu verildi. 1994-cü il sentyabrın 20-də müstəqil Azərbaycanın həyatında əlamətdar hadisə yaşandı. Heydər Əliyev böyük səylər göstərərək beynəlxalq səviyyədə respublikamıza qarşı yaranan inamsızlığı aradan qaldırmağa və transmilli şirkətlərlə Xəzərin Azərbaycan sektorundakı "Azəri", "Çıraq", "Günəşli" yataqlarının birgə işlənməsinə dair "Əsrin müqaviləsi"nin imzalanmasına nail oldu.

Heydər Əliyevin müdrikliyi və uzaqgörənliyi sayəsində xaosdan, anarxiyadan qurtulan Azərbaycan böyük yolun başlanğıcında idi. Bir-birinin ardınca görülən işlər, "Əsrin müqaviləsi" Azərbaycanın müstəqilliyi və gələcək inkişafı üçün son dərəcə möhkəm təməllər yaratdı.

## Azərbaycanı böyük uğurlara aparan yol

Ulu Öndərin əsasını qoyduğu siyasətin son 20 ildən artıq müddətdə Prezident İlham Əliyev tərəfindən inamla davam etdirilməsi Azərbaycanın böyük xobəxttliyidir. Prezident İlham Əliyev hələ 2003-cü ildə ilk dəfə dövlət başçısı statusunda fəaliyyətə başlayarkən bəyan etdi ki, Onun üçün bundan sonra əsas vəzifə Heydər Əliyev siyasətini davam etdirmək olacaq. O, verdiyi vədə sadiq qalaraq Ulu Öndərin əsasını qoyduğu siyasəti həm yüksək səviyyədə davam etdirib, həm də müasir çağırışları nəzərə alaraq yeni çalarlarla daha da zənginləşdirib.

Azərbaycanda Ulu Öndərin əsasını qoyduğu siyasətin Prezident İlham Əliyev tərəfindən məqsədyönlü şəkildə davam etdirilməsi ölkəmizin bugünkü müsbət reallıqlarını yaradıb. Prezident İlham Əliyevin vurğuladığı kimi, biz Azərbaycanda güclü, özünə güvənən, müstəqil dövlət qururuq. Bu dövlət əbədi yaşamalıdır və uğurla yaşamalıdır.

Ulu öndər Heydər Əliyevin əsasını qoyduğu siyasətin varisliyinin təmin olunması sayəsində respublikamız iqtisadi və siyasi müstəqilliyini tam təmin edib. Bu gün Azərbaycan dünyada milli maraqlarını qətiyyətlə qorumağı bacaran dövlət kimi tanınır. Ölkəmizin ən böyük uğuru isə 44 günlük müharibədə və 23 saatlıq lokal xarakterli antiterror əməliyyatında şanlı zəfərlərə imza atmasıdır. Bu qələbələr sayəsində respublikamız ərazi bütövlüyünü və suverenliyini öz gücünə tam təmin edib. Postmüharibə dövründə isə işğaldan azad olunmuş ərazilərdə genişmiqyaslı quruculuq-bərpa işləri həyata keçirilir, artıq Böyük Qayıdışa dair I Dövlət Proqramının icrası uğurla tamamlanmaq üzrədir. Bütün bunlar isə müstəqil Azərbaycanın gücünü və qüdrətini nümayiş etdirir.

*Mübariz FEYİZLİ*



# Özbəkistan Respublikasının Prezidenti Zati-aliləri cənab Şavkat Mirziyoyevə

**Hörmətli Şavkat Miromonoviç,**

Əziz Qardaşım,

Sizi və Sizin simanızda qardaş Özbəkistan xalqını Azərbaycan Respublikası və Özbəkistan Respublikası arasında əlamətdar ildönümü - diplomatik münasibətlərin qurulmasının 30 illiyi münasibətilə ürəkdən təbrik etməkdən və ən səmimi arzularımı çatdırmaqdan böyük məmnunluq duyuram.

Diplomatik əlaqələrimiz otuz illik tarixə malik olsa da, qardaş xalqlarımızın əsrlərdən-əsrlərə və nəsillərdən-nəsillərə keçən birlik, həmrəylik, qarşılıqlı hörmət və dəstək ənənələri mövcuddur. Ortaq soy-kök, tarix, dil, mədəniyyət, dini-mənəvi dəyərlər və qardaşlıq kimi möhkəm təməllər üzərində qurulmuş Azərbaycan-Özbəkistan dövlətlərarası münasibətlərinin ötən dövr ərzində dinamik inkişaf edərək ali səviyyəyə - müttəfiqlik pilləsinə yüksəlməsi xüsusi məmnunluq doğurur. Keçən il imzaladığımız Müqavilə iki müstəqil, güclü, suveren dövlətimiz arasında təbii müttəfiqliyi rəsmiləşdirən və əbədiləşdirən mühüm tarixi sənəddir. Azərbaycan-Özbəkistan birliyinin və tərəfdaşlığının möhkəmlənməsində və bu səviyyəyə çatmasında Sizin müstəsna rolunuzu və xidmətlərinizi xüsusi vurğulamaq istərdim.

Bu gün Özbəkistan təkcə regionda deyil, həm də beynəlxalq aləmdə böyük nüfuz və etimad qazanmış ölkədir. Sizin qətiyyətli rəhbərliyinizlə bütün sahələrdə həyata keçirilən möhtəşəm dəyişikliklərin, sosial-iqtisadi inkişafın, ölkənin iqtisadi potensialının güclənməsinin, qlobal arenada imicinin ildən-ilə artmasının şahidi olmaqdan qardaş ölkə olaraq böyük fərəh hissi duyuruq.

Azərbaycan-Özbəkistan əlaqələri çoxşaxəli əməkdaşlıq gündəliyinə malikdir. Ölkələrimizin siyasi, iqtisadi, ticari, sənaye, enerji, nəqliyyat-logistika, təhlükəsizlik, investisiya, kənd təsərrüfatı, humanitar və digər sahələrdə qarşılıqlı faydalı əməkdaşlığının gündən-günə genişlənməsi və yeni məzmunla zənginləşməsi bizi sevindirir. İkitərəfli əməkdaşlıq zəminində qısa müddət ərzində əldə etdiyimiz misilsiz nailiyyətlər ölkələrimizin tərəqqisinə, xalqlarımızın rifahına, regionumuzda əməkdaşlığa, ümumi firavanlığa və sabitliyə töhfə verir.

Özbəkistanın beynəlxalq hüququn norma və prinsiplərinə, BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinin tələblərinə uyğun olaraq Azərbaycanın ərazi bütövlüyü, suverenliyi və beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığına verdiyi daimi dəstəyini və ədalətli mövqeyini Azərbaycan xalqı heç zaman unutmur. Sizin azad olunmuş ərazilərimizə dəfələrlə səfər etməyinizə, Füzulidə özbək xalqının böyük oğlu - Mirzə Uluqbəyin adını daşıyan məktəbin inşasına, Xankəndidə birgə tikiş müəssisəsinin yaradılmasında dəstəyinizə və ikitərəfli əlaqələrimizin dərinləşməsinə xidmət edən digər təşəbbüslərinizə görə Sizə bir daha dərin təşəkkürümü bildirirəm. Biz bunu qardaş Özbəkistanın Qarabağın bərpasına verdiyi dəstəyin, eyni zamanda həmrəyliyimizin, qardaşlığımızın parlaq rəmzi olaraq dəyərləndiririk.

İkitərəfli müstəvidə olduğu kimi, çoxtərəfli əsasda da vacib məsələlərin həlli istiqamətində ölkələrimizin birgə fəaliyyəti təqdirəlayiqdir. Azərbaycan ilə Özbəkistan arasında beynəlxalq təşkilatlar çərçivəsində qarşılıqlı etimad və dəstəyə əsaslanan əməkdaşlıq uğurla davam edir. Regional və beynəlxalq məsələlərə ortaq baxışlarımız, ümumi məqsədlərimiz və istəklərimiz, o cümlədən üzləşdiyimiz çağırışların həlli istiqamətində bir-birimizə verdiyimiz dəstək xalqlarımızın maraqlarına, dövlətlərimizin mənafelərinə xidmət edir.

Hazırda Mərkəzi Asiya, Cənubi Qafqaz və Xəzər regionları vahid geosiyasi regiona çevrilməkdədir. Bu coğrafi müstəvidə gedən müsbət proseslərdə, əlbəttə ki, Azərbaycan ilə Özbəkistan arasında möhkəm əlaqələrin və səmərəli əməkdaşlığın mühüm rolu vardır.

**Əziz Qardaşım,**

Füsunkar ölkənizə həyata keçirdiyim hər səfərimdə mənə göstərilən xüsusi diqqət və qonaqpərvərliyi, əsl qardaşlıq münasibətini yüksək qiymətləndirir, Sizinlə mehribanlıq və səmimiyyət şəraitində keçən görüşlərimizi ən xoş təəssüratlarla xatırlayıram.

Əminəm ki, bir-birinə qırılmaz tellərlə bağlı olan qardaş xalqlarımızın sarsılmaz iradəsindən qaynaqlanan Azərbaycan-Özbəkistan dövlətlərarası münasibətlərinin xoş ənənələrini yaşatmaq və möhkəmləndirmək, müttəfiqliyimizi dərinləşdirmək yolunda birgə səylərimizi bundan sonra da uğurla davam etdirəcəyik.

Sizi bu əlamətdar tarixi ildönümü münasibətilə bir daha səmimi-qəlbdən təbrik edir, möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə uğurlar, qardaş Özbəkistan xalqına daim əmin-amanlıq və firavanlıq arzulayıram.

**Hörmətlə,**

***İlham Əliyev,***

***Azərbaycan Respublikasının Prezidenti***

# Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyevdən Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

**Hörmətli İlham Heydər oğlu.**

Əziz qardaşım.

Zati-aliləri, əvvəlcə Sizi və qardaş Azərbaycan xalqını Özbəkistan ilə Azərbaycan arasında diplomatik münasibətlərin qurulmasının mübarək 30 illiyi münasibətilə səmimi-qəlbdən təbrik etməkdən böyük məmnunluq duyuram.

Xüsusilə qeyd etmək istərdim ki, ötən dövrdə əməkdaşlığımızın salnaməsi yaddaqalan hadisələrlə zəngin olmuş, bütün sahələrdə əlaqələr ardıcıl şəkildə inkişaf etmişdir. Əhatəli və uzunmüddətli münasibətlərimizi hərtərəfli möhkəmləndirməyə yönəlmiş hüquqi baza və səmərəli institusional mexanizmlər, çoxtərəfli formatlar yaradılmışdır.

Şübhəsiz ki, Özbəkistan ilə Azərbaycan arasında mövcud olan ortaq qardaşlıq, bizi birləşdirən möhkəm dostluq bağları, müntəzəm xarakter almış ali səviyyəli səmərəli dialoqlarımız qardaş xalqlarımızın ümumi tərəqqisinə xidmət etməkdədir.

Xüsusilə son illərdə dövlətlərarası münasibətlərimizin tamamilə yeni tarixi mərhələyə, müttəfiqlik səviyyəsinə yüksəlməsi qəti siyasi iradəmizin və birgə ardıcıl səylərimizin parlaq praktik ifadəsi kimi dəyərləndirilə bilər.

Hörmətli İlham Heydər oğlu, əminəm ki, qarşılıqlı etimad və hörmət prinsiplərinə əsaslanan strateji tərəfdaşlığımız bütün prioritet istiqamətlərdə, o cümlədən siyasi, iqtisadi, ticarət, nəqliyyat, logistika, energetika, sənaye, kənd təsərrüfatı, turizm və mədəniyyət sahələrində bundan sonra da sürətlə inkişaf edəcəkdir.

Şübhəsiz ki, Zati-alinizlə cari ildə həm Azərbaycanda, həm də Özbəkistanda keçiriləcək bir sıra mühüm görüşlərimiz təkcə ikitərəfli münasibətlərimizin perspektivləri üzrə deyil, həm də regional tərəfdaşlığın ən aktual məsələlərə dair ətraflı fikir mübadiləsi aparmaq üçün əlverişli imkan yaradacaqdır.

Çoxşaxəli əlaqələrimizin salnaməsindəki bu əlamətdar gün münasibətilə Zati-alinizi bir daha təbrik edir, Sizə möhkəm cansağlığı, ailə səadəti, son dərəcə məsuliyyətli dövləti fəaliyyətinizdə böyük uğurlar, qardaş Azərbaycan xalqına isə sülh, əmin-amanlıq, rifah və davamlı tərəqqi arzulayıram.

**Səmimi ehtiramla,**

***Şavkat Mirziyoyev,***

***Özbəkistan Respublikasının Prezidenti***

# Siyasi anlaşmadan qaynaqlanan strateji əməkdaşlıq...

Azərbaycanla İtaliya arasında münasibətlər hər zaman çox yaxşı səviyyədə olub. Son illər isə bu münasibətlər daha da inkişaf edərək xoş niyyətə, qarşılıqlı inama əsaslanan strateji tərəfdaşlıq səviyyəsinə yüksəlib.

Bu günlərdə isə İtaliya Prezidenti Sercio Mattarellanın respublikamıza növbəti işgüzar səfəri böyük uğurla baş tutub. Səfər çərçivəsində Azərbaycan Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ölkəmizdə rəsmi səfərdə olan İtaliya Prezidenti Sercio Mattarella oktyabrın 1-də Bakıda İtaliya-Azərbaycan Universitetinin ilk tədris korpuslarının açılışında iştirak ediblər. Dövlət başçıları hər iki ölkənin siyasi dairələrinin təmsilçilərinin, görkəmli elm adamlarının, və əlbəttə ki, tələbələrin iştirakı ilə baş tutan tədbirdəki çıxışlarında Azərbaycan-İtaliya münasibətlərinin hazırkı yüksək səviyyəsindən məmnunluqlarını bildiriblər və əlaqələrimizin gələcəyinə nikbin baxışlarını ifadə ediblər.

## Uzunmüddətli münasibətlər

Azərbaycanla İtaliya arasında strateji tərəfdaşlıq ilk növbədə yüksək səviyyədə olan siyasi anlaşmadan qaynaqlanır. Azərbaycan və İtaliya rəhbərliyinin siyasi iradəsi ortadadır - hər iki tərəfdən verilən bəyanatlar, dövlət başçıları səviyyəsində sıx təmaslar, intensiv hal alan qarşılıqlı səfərlər, hər iki ölkənin beynəlxalq platformalarda bir-birini dəstəkləməsi və praktiki müstəvidə atılan addımlar, birgə layihələrin icrası və s. bunu əyani şəkildə nümayiş etdirir. Ölkələrimiz arasında iki strateji tərəfdaşlıq sənədi mövcuddur. Onlardan biri 2015-ci ildə, "Hərtərəfli Strateji Tərəfdaşlıq haqqında Birgə Bəyanamə" adlanan digəri isə isə 5 il bundan əvvəl imzalanıb. Qeyd olunan sənədlərdə ikitərəfli əməkdaşlığa dair müddəaların geniş spektiri öz əksini tapıb. Əlamətdar haldır ki, starteji tərəfdaşlıq sənədlərində əks olunan bütün müddəalar yerinə yetirilir və tərəflər bundan məmnundurlar. "İtaliya Azərbaycanla artıq uzun illər strateji tərəfdaşlıq əsasında münasibətlər qurmuşdur. Biz, sözün əsl mənasında, strateji tərəfdaşıq. Çünki bizim əməkdaşlığımız strateji xarakter daşıyır, qısamüddətli deyil, uzunmüddətlidir. Eyni zamanda, bizim əməkdaşlıq çərçivələrinə ildən-ilə yeni istiqamətlər əlavə olunur. Energetikadan başlamış sənaye istehsalına qədər uzanan və bu gün təhsil sahəsini əhatə edən əməkdaşlıq, sözün əsl mənasında, strateji xarakter daşıyır", - deyə Prezident İlham Əliyev tədbirindəki çıxışında bildirib.

Hazırda dünyanın mənzərəsi arzuedilən deyil. Ayrı-ayrı regionlarda kataklizmlər baş verir, müharibələr alovlanır, bölücülük, irqçilik, ədavət meylləri güclənir. Bəşəriyyətin, sivilizasiyanın gələcəyi üçün son dərəcə təhlükəli olan proseslərin qarşısını necə almaq olar? Əlbəttə ki, qarşılıqlı anlaşma, dialoq. əməkdaşlıq yolu ilə. Dost ölkənin Prezidenti Sercio Mattarella çıxışında Azərbaycan-İtaliya münasibətlərini dünyaya nümunə olduğuna diqqət çəkərək vurğulayıb: "Ağır münaqişə və toqquşmalarla səciyyələnən hazırkı beynəlxalq vəziyyət fonunda biz məmnuniyyətlə əməkdaşlıq edirik, nəinki iqtisadiyyat, sənaye sahələrində, o cümlədən mədəniyyət, gənclərin təhsili, onların formalaşdırılması sahəsində çalışırıq".



## Enerji dialoqunda böyük inkişaf

Azərbaycanla İtaliya arasında getdikcə intensivləşən enerji dialoqu ikitərəfli strateji tərəfdaşlıq münasibətlərinin mühüm istiqamətini təşkil edir. Prezident İlham Əliyev İtaliya-Azərbaycan əməkdaşlığının energetika sahəsində böyük bir inkişafa yol açdığını xüsusi vurğulayıb. Azərbaycan karbohidrogen resursları ilə zəngin olan bir ölkədiir. İtaliya isə dünyanın 7-ci böyük iqtisadiyyatı sayılır və buna görə də ölkədə enerji daşıyıcılarına böyük tələbat var. Səmərəli enerji diplomatiyası təchizatçı ölkə olan Azərbaycanın və istehlakçı ölkə olan İtaliyanın maraqlarını ədalətli şəkildə təmin edir və bu uzunmüddətli əməkdaşlıqdan hər iki tərəf faydalanır. Hazırda respublikamızdan 14 ölkəyə mavi yanacaq tədarük olunur. Azərbaycanın enerji məhsullarının istehlakçıları arasında İtaliyanın payı daha böyükdür. Belə ki, Azərbaycan nefti İtaliyanın neft balansında birinci yerdə, Azərbaycan qazı isə ikinci yerdə dayanır.

Əlamətdar haldır ki, Azərbaycanla İtaliya arasında uzun illəri əhatə edən səmərəli enerji dialoqu yalnız ikitərəfli əməkdaşlığı əhatə etmir, bundan daha çox ölkə, bütövlükdə Avropa İttifaqı (Aİ) məkanı faydalanır. Deyə bilərik ki, iki dost ölkənin siyasi rəhbərliyinin qətiyyətli mövqeyi bu gün Avropa üçün vazkeçilməz ixrac marşrutu qismində çıxış edən Cənub Qaz Dəhlizinin inşasının tamamlanmasında həlledici amillərdən biri olub. Zamanında bir sıra dairələr Cənub Qaz Dəhlizinin, o cümlədən də onun mühüm qolu olan Trans Adriatik qaz boru kəmərinin inşasını əngəlləməkdən ötrü, necə deyərlər, dəridən qabıqdan çıxırdılar. Ancaq iki ölkənin liderlərinin siyasi qətiyyəti, uzaqgörənlik nümayiş etdirmələri bu müqaviməti tar-mar etdi və İtaliya ərazisində TAP-ın inşası ilə Cənub Qaz Dəhlizi layihəsi tamamlandı. "...İtaliya-Azərbaycan əməkdaşlığı, məsələn, energetika sahəsində böyük bir inkişafa yol açmışdır. Cənub Qaz Dəhlizinin tərkib hissəsi olan TAP layihəsi böyük dərəcədə Prezident Mattarellanın şəxsi dəstəyi nəticəsində mümkün olmuşdur. Əgər o vaxt bu həll olunmasaydı, bu gün biz Avropa məkanına bu qədər təbii resurslar ixrac edə bilməzdik. Biz də ondan əziyyət çəkərdik, Avropa məkanı da. Bu gün Azərbaycan qazı Avropa İttifaqına səkkiz üzv ölkənin enerji təhlükəsizliyini dəstəkləyir və bu coğrafiya genişlənir və burada İtaliya-Azərbaycan əməkdaşlığı həlledici rol oynamışdır", - deyə Prezident İlham Əliyev vurğulayıb.



## Təhsil sahəsində də bir nömrəli tərəfdaş

Azərbaycanla İtaliya arasında bərqərar olan strateji tərəfdaşlıq münasibətlərinin digər bir mühüm istiqaməti kimi təhsil sahəsində əməkdaşlığı göstərə bilərik. Bu sahədə əməkdaşlığın möhkəm təməli qoyulub və Bakıda Azərbaycan-İtaliya Universitetinin fəaliyyətə başlaması prosesə daha güclü təkan verilib. Birgə təhsil müəssisəsinin ikitərəfli əlaqələrin inkişafında mühüm rol oynayacağına diqqət çəkən dost ölkənin dövlət başçısı Sercio Mattarella məmnunluq hissi ilə bildirib ki, bu təşəbbüsün həm rəmzi, nümunəvi mahiyyəti var, həm də o, əməkdaşlığımızın tacıdır.

Həqiqətən də söhbət heç də adi olmayan və kifayət qədər yüksək səviyyəsi ilə fərqlənən bir təhsil müəssisəsindən gedir. Qeyd edək ki, İtaliya-Azərbaycan Universitetinin yaradılması təşəbbüsü 2020-ci ildə Prezident İlham Əliyev tərəfindən İtaliyaya dövlət səfəri zamanı irəli sürülüb. Layihəni həyata keçirmək üçün ADA Universiteti ilə İtaliyanın beş aparıcı ali təhsil müəssisəsi - Luiss Guido Carli Universiteti, Sapienza Universiteti, Turin Politexnik Universiteti, Bolonya Universiteti və Milan Politexnik Universiteti arasında 2022-ci ildə akademik əməkdaşlıq sazişləri imzalanıb. İtaliya-Azərbaycan Universitetinin Bakıda kampusunun yaradılması haqqında Prezident İlham Əliyevin imzaladığı müvafiq Sərəncama uyğun olaraq layihənin icrası uğurla təmin edilib. İtaliya-Azərbaycan Universiteti binalarının təməli 2022-ci ildə hər iki ölkənin xarici işlər nazirlərinin iştirakı ilə Bakıda qoyulub. Universitetə tələbə qəbulu 2023-cü ildən magistr səviyyəsində həyata keçirilir. Hazırda burada tədris olunan 8 bakalavr və 2 magistr proqramında 538 tələbə bakalavr, 102-si isə magistr səviyyəsində təhsil alır. "Əminəm ki, təhsil sahəsində də İtaliya bizim üçün bir nömrəli tərəfdaş olacaq. Hər halda burada gördüklərimiz və artıq fəaliyyətə başlamış universitetin uğurları bunu deməyə əsas verir", - deyə Prezident İlham Əliyev bildirib.

***Mübariz ABDULLAYEV***

# Dövlət Statistika Komitəsinin sədri Tahir Budaqov Ankarada İslam Əməkdaşlıq Təşkilatının Statistika Komissiyasının 14-cü sessiyasında iştirak edir









2025-ci ilin oktyabrın 1-də Türkiyənin paytaxtı Ankara şəhərində İslam Əməkdaşlıq Təşkilatının İslam ölkələri üçün Statistik, İqtisadi və Sosial Tədqiqat və Təlim Mərkəzinin (SESRIC) təşkilatçılığı ilə İslam Əməkdaşlıq Təşkilatının Statistika Komissiyasının 14-cü sessiyası öz işinə başlayıb. Tədbirdə ölkəmizi Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin sədri Tahir Budaqov təmsil edir.

Oktyabrın 3-dək davam edəcək sessiya zamanı Statistika Komissiyasının son bir il ərzində fəaliyyəti və 2026-2030-cu illər üçün fəaliyyət proqramı nəzərdən keçiriləcək, eyni zamanda məlumat əsaslı energetikaya keçidin təmin olunmasında milli statistika qurumlarının rolu, rəqəmsallaşma vasitəsilə milli statistika qurumlarının modernizasiyası, 4-cü Dayanıqlı İnkişaf Məqsədinin (Keyfiyyətli təhsil) göstəricilərinin monitorinqi və hesabatlılıq, digər aktual məsələlər üzrə müzakirələr aparılacaq, ölkə təcrübələri bölüşdürüləcəkdir.

Sessiyanın 2-ci günü Dövlət Statistika Komitəsinin Statistika işlərinin əlaqələndirilməsi və strateji planlaşdırma şöbəsinin müdiri Toğrul Əcəlov rəqəmsallaşma vasitəsi ilə milli statistika sisteminin modernizasiyasına dair təqdimat edib, Komitə tərəfindən göstərilən elektron xidmətlər, məlumat yayımı prosesinin rəqəmsallaşdırılması, inzibati məlumatlardan istifadənin genişləndirilməsi, rəsmi statistikada iri həcmli və peyk təsviri məlumatlarından istifadə, kənd təsərrüfatı siyahıyaalınmasının rəqəmsallaşdırılması sahəsində görülmüş işlər barədə tədbir iştirakçılarına geniş məlumat verib.

# “Bahar” və “Qum-dəniz” yataqlarının yenidən işlənməsi üzrə əməkdaşlıq sənədi imzalanıb

SOCAR ilə SLB şirkəti arasında Xəzər dənizindəki “Bahar” və “Qum-dəniz” yataqlarının yenidən işlənməsini sürətləndirmək üçün tərəfdaşlıq barədə sənəd imzalanıb.

SOCAR-dan bildirilib ki, bu tərəfdaşlıq perspektivli hasilat zonalarının müəyyənləşdirilməsinə, hərtərəfli rezervuar modelləşdirməsinin işlənib hazırlanmasına və bu yataqlarda Erkən Hasilat Sxemini (EPS) dəstəkləmək üçün quyu və qazma qurğuları proqramlarının layihələndirilməsini nəzərdə tutur.

Layihə SOCAR-ın neft hasilatını artırmaq və yetkin dəniz aktivlərinin istismar müddətini uzatmaq üzrə uzunmüddətli strategiyasında mühüm rol oynayacaq. Bu təşəbbüs əməliyyat səmərəliliyini və davamlılığı təmin etməklə yanaşı, hasilatı sürətləndirəcək praktik inkişaf ssenarilərini hazırlamaq məqsədi daşıyır.




İmzalanma mərasimində çıxış edən SOCAR-ın İşlənmə və Hasilat Əməliyyatları seqmenti üzrə vitse-prezidenti Babək Hüseynov SOCAR ilə SLB arasındakı uğurlu əməkdaşlıq əlaqələrindən bəhs edib. Layihənin qabaqcıl üsullardan istifadə etməklə yetkin yataqlarda hasilatı optimallaşdırmaq istiqamətində atılan mühüm addım olduğunu söyləyən vitse-prezident “Bahar” və “Qum-dəniz” yataqlarının yenidən qurulmasının növbəti mərhələlərinin texniki əsasının qoyulacağına inamını ifadə edib.

# Bakı Təşəbbüs Qrupunun daha bir beynəlxalq uğuru...




Bakı Təşəbbüs Qrupu (BTQ) daha bir mühüm uğur qazanıb. Belə ki, qurumun hazırladığı hesabat BMT Baş katibinin 2025-ci il üzrə təqdim etdiyi “Afrikamənşəli insanların beynəlxalq ikinci onilliyinin həyata keçirilməsi üzrə fəaliyyət proqramı”na dair hesabatda öz əksini tapıb.

Bakı Təşəbbüs Qrupundan verilən məlumata görə, sənəddə BTQ dekolonizasiya və kiçik adalarda yaşayan xalqların müstəqilliyi istiqamətində fəaliyyət göstərən qlobal vətəndaş cəmiyyətləri arasında yeganə QHT kimi qeyd olunub.

Xatırladaq ki, cari ilin mayında BTQ “Afrikamənşəli insanların beynəlxalq ikinci onilliyi” çərçivəsində gördüyü işlər barədə hesabatı BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarlığına təqdim etmişdi. Baş katibin hesabatında təşkilata istinad edilməsi BTQ-nin beynəlxalq etimada malik tərəfdaş kimi tanındığını və kolonializmə məruz qalan xalqların səsini dünyaya çatdırmaqda mühüm platforma rolunu oynadığını bir daha təsdiqləyir.

BTQ-nin hesabatında əksini tapan fəaliyyətlər sırasında 2025-ci il yanvarın 21-də keçirilmiş “Reyunyon adasının müstəqilliyi: Fransanın müstəmləkə irsinin yenidən qiymətləndirilməsi və suverenliyə gedən yol” adlı beynəlxalq konfrans, fevralın 24-26-da Fransa və Niderland müstəmləkələrində çalışan jurnalistlərin iştirakı ilə təşkil olunmuş Beynəlxalq Mediatur, eləcə də aprelin 15-də BMT-nin Nyu-Yorkdakı mənzil-qərargahında keçirilmiş “Dekolonizasiya: Səssiz İnqilab” adlı beynəlxalq konfrans yer alıb.

Qeyd edək ki, sonuncu tədbir BMT-nin Afrikamənşəli İnsanların Daimi Forumunun dördüncü sessiyasının rəsmi yan tədbiri kimi qeydiyyatdan keçib.

Bu beynəlxalq tədbirlər BTQ-nin dekolonizasiya və insan hüquqları sahəsindəki fəaliyyətlərinin geniş ictimaiyyətə təqdim olunmasına mühüm töhfə verib. Təşkilatın icraçı direktoru Abbas Abbasov və müstəmləkə altında olan ərazilərin nümayəndələri BMT Baş Assambleyasında Afrikamənşəli İnsanların Daimi Forumunun dördüncü sessiyasında çıxış ediblər.

Bundan başqa, BTQ “Afrikamənşəli insanların beynəlxalq ikinci onilliyi”nə töhfə kimi “Reparasiya: Müstəmləkə irsi ilə üzləşmə” adlı müraciəti qəbul edib və kolonial zülmün tanınması, reparasiya tələbləri ilə bağlı beynəlxalq petisiya başladıb. Sənəddə keçmiş müstəmləkəçi dövlətlərin tarixi cinayətlərə görə məsuliyyətdən yayınması kəskin şəkildə qınanıb, reparasiyaların isə yalnız hüquqi deyil, həm də ədalət və insan ləyaqətinin bərpasına əsaslanan mənəvi öhdəlik olduğu vurğulanıb.

# Biləsuvar GES-in I panelinin quraşdırılması mərasimi keçirilib




Biləsuvar rayonunda inşa edilən 445 MVt gücündə Günəş elektrik stansiyasında (GES) I panelin quraşdırılması mərasimi keçirilib.

Tədbirdə dövlət qurumlarının, beynəlxalq şirkətlərin və yerli icra hakimiyyətinin nümayəndələri iştirak ediblər.

Bildirilib ki, ümumi sahəsi 1400 hektar olan Biləsuvar GES-də Çinin “JA Solar” şirkətinin istehsalı olan, hər iki üzü elektrik enerjisi istehsal edə bilən 943 mindən çox panelin quraşdırılması nəzərdə tutulur. Gücü 625-630 Vt təşkil edən Günəş panelləri mərhələli şəkildə sahəyə gətirilir. Stansiya 8131 ədəd tək oxlu izləmə sistemi ilə təchiz olunacaq. İstismara verildikdən sonra panellərin təmizlənməsi xüsusi qurğular vasitəsilə avtomatik olaraq həyata keçiriləcək. Stansiyanın növbəti il istismara verilməsi planlaşdırılır.

Tədbirdə Biləsuvar Rayon İcra Hakimiyyətinin başçısı Faiq Qürbətov, Energetika Nazirliyi yanında Bərpa Olunan Enerji Mənbələri Dövlət Agentliyinin direktoru Cavid Abdullayev, “Azərenerji” ASC-nin İdarə Heyəti sədrinin müavini Rüstəm Qasımov, Masdar şirkətinin baş əməliyyat direktoru Əbdüləziz Alobaidli, SOCAR-ın vitse-prezidenti Əfqan İsayev, SOCAR Green şirkətinin baş direktoru Elmir Musayev və digər nümayəndələr iştirak edərək layihənin enerji keçidi və ətraf mühitin qorunmasında əhəmiyyətini vurğulayıblar.

Çıxışlarda bildirilib ki, Azərbaycanın bərpa olunan enerji hədəflərinə uyğun olaraq həyata keçirilən Biləsuvar GES həm istehsal gücü, həm də istifadə edilən texnologiyaların miqyası baxımından regionun ən böyük Günəş enerji layihələrindən biri olacaq.

Mərasimdə iştirak edən rəsmi şəxslər və qonaqlar simvolik olaraq Günəş panellərini imzalayıb və ilk panelin quraşdırılmasında iştirak ediblər.

Xatırladaq ki, Azərbaycanda bərpaolunan enerji mənbələrindən istifadənin genişləndirilməsi və “yaşıl enerji” zonasının yaradılması məqsədilə Biləsuvarda gücü 445 meqavat olacaq GES-in inşası ilə əlaqədar Azərbaycan dövləti ilə “Masdar” şirkəti arasında müqavilə imzalanıb. 4 iyun 2024-cü il tarixdə isə Azərbaycan Prezidenti İlham Əliyev və BƏƏ-nin sənaye və qabaqcıl texnologiyalar naziri Sultan Əhməd Əl Cabirin iştirakı ilə layihənin təməli qoyulub.

Stansiyanın inşası məqsədilə dövlət mülkiyyətində olan və rayonun inzibati sərhədləri daxilində yerləşən 1 454 hektar ərazi ayrılıb. Layihənin icrasında Çin, Türkiyə, İspaniya və digər ölkələrdən olan yüksək ixtisaslı mütəxəssislər iştirak edirlər. Eyni zamanda, Biləsuvardan olan 1 500 nəfər yerli əməkdaşın layihəyə cəlb olunması planlaşdırılır.

# Trampın sülh planına böyük dəstək

## Beynəlxalq aləm ABŞ Prezidentinin yol xəritəsini alqışlayır

**Sirr deyil ki, Yaxın və Orta Şərq regionu onilliklərdir davam edən münaqişələrdən böyük əziyyət çəkir. Bu münaqişələrin ən mürəkkəb həlqələrindən biri isə təxminən 80 ildən artıq tarixə malik İsrail-Fələstin qarşıdurmasıdır. Qeyd edək ki, bu müharibənin ən son mərhələsi - 2023-2025-ci illərdə İsrail ilə HƏMAS arasında gedən müharibə yalnız regional deyil, qlobal miqyasda da təhlükəsizlik böhranını dərinləşdirdi. Çünki artıq bu və bu kimi konfliktlər yalnız iki tərəfin silahlı toqquşması ilə məhdudlaşmır - paralel olaraq enerji bazarlarına, beynəlxalq diplomatiyaya və qlobal təhlükəsizlik sisteminə təsir göstərir. Donald Trampın yenidən ABŞ Prezidenti kimi fəaliyyətə başlamasından ötən aylar ərzində dayandırdığı münaqişələr, həll etdiyi konfrantasiyaların siyahısına bu münaqişə də əlavə oluna bilər - onun təşəbbüsü ilə yeni sülh planının gündəmə gəlməsi beynəlxalq müzakirələrin əsas mövzusuna çevrilib. Plan özündə həm atəşkəsin təmin olunmasını, həm də gələcəkdə tərəflərin (Fələstin və İsrailin) problemin həlli ilə bağlı müzakirələrə başlaması imkanını ortaya qoyur.**



### Sülh üçün - nə etməli, nə etməməli...

Bir çox siyasi analitiklər 20 bəndlik strukturun sülh prosesinin mərhələli şəkildə irəliləməsi üçün mühüm mexanizm olduğunu təsdiqləyir. Qeyd edək ki, plana əsasən:

- Ani və tam atəşkəs: Müharibə və bütün silahlı əməliyyatlar dayandırılır. Hər iki tərəf atəşkəs rejiminə riayət etməli, hücum və raket atəşlərinə son qoyur.

- Humanitar fasilə və yardım yolu: Qəzzaya və çevrə bölgələrə dərhal humanitar yardım yolları açılır. Əhalinin əsas ehtiyacları (qida, su, dərman) təmin olunur.

- Girovların azadlığı və dəyişdirilməsi: tutulan girovlar və məhbuslar azad olunur.

- Silahsızlanma prinsipi: HƏMAS silahı tam yerə qoyur, döyüş obyektləri və tünellər məhv edilir. Silah istehsalı, saxlama obyektləri və gizli xəttlər mütəxəssis monitorinqi ilə yoxlanılır.

- Beynəlxalq Stabillizasiya Qüvvəsinin (BSQ) yerləşdirilməsi: Qəzzada və sərhəd bölgələrdə BSQ yerləşdirilir. BSQ sərhəd nəzarətini, silahsızlanmanı izləməni və ictimai təhlükəsizliyi təmin edir.

- Keçid hakimiyyəti (transitional government): Qəzza üç il müddətinə texokratlardan ibarət keçid idarəsi tərəfindən idarə olunur. Bu hakimiyyətə beynəlxalq “Barış Şurası” nəzarət edir.

- Barış Şurası (Peace Board): ABŞ, BMT, ərəb dövlətləri və beynəlxalq təşkilatlar şuraya daxil olur. Şura keçid hakimiyyətinin fəaliyyətinə nəzarət edir və raportlar təqdim edir.

- Diplomatik status və Fələstin dövlətçiliyi xəritəsi: Keçid dövrü ərzində Qəzza və Qərb Şəriyəsinin birlikdə idarəsi gücləndirilir. 3 ilin sonunda Fələstin dövləti konstitusiyalı, seçkilərlə seçilən orqanlarla yaradılır.

- İsrail qüvvələrinin mərhələli çıxarılması: Əvvəlcə şəhər daxilindəki əməliyyatlar dayandırılır, İsrail qüvvələri tədricən çəkilir. Tam çıxarılma, təhlükəsizlik şərtlərinə və monitorinqə bağlı olur.

- Təhlükəsizlik zonaları və sərhəd nəzarəti: Qəzza sərhəd ətrafında müəyyən bufer zonaları saxlanıla bilər. BSQ və Fələstin polis qüvvələri sərhədləri ortaq idarə edir.

- Həmin bölgədə polis və təhlükəsizlik qurumları: Fələstin polisinin ixtisaslaşmış bölmələri formalaşdırılır və təlim görür. BSQ ilə koorinasiyada çalışır.

- Bərpa və infrastruktur investisiyaları: Qəzza infrastrukturu (su, elektrik, yol, xəstəxana, məktəb) yenidən qurulur. Beynəlxalq donorlar (əhəmiyyətli rol ərəb ölkələrinə düşsün) maliyyə təmin edir.

- İqtisadi islahatlar və iş yerlərinin yaradılması: Xüsusi iqtisadi zonalar açılır, investisiya təşviq edilir. Fələstin gəncləri və işsizlər üçün micro-kredit proqramları tətbiq edilir.

- Qarşılıqlı diplomatik əlaqələrin normallaşması: İsrail və Fələstin diplomatik münasibətlər qurur, səfirliklər açılır. Ərəb dövlətləri Fələstin dövlətini beynəlxalq miqyasda tanıyır.

- Təhsil və mədəni əlaqələr: Məktəb proqramlarında sülh, dinc yanaşma və qarşılıqlı hörmət mövzuları yer alır. Mədəni və humanitar, idman və incəsənət layihələri reallaşır, o cümlədən cəmiyyətlər arasında əlaqə yaradılır.

- Hüquqi məhkəmə mexanizmləri və məsuliyyət: İnsan haqları pozuntularının araşdırılması üçün müstəqil tribunal təşkil edilir. Müharibə qurbanlarının ailələrinə kompensasiya mexanizmləri fəaliyyət göstərir.

- Monitorinq və hesabatlılıq sistemi: BMT və beynəlxalq müşahidəçilər hər üç ayda vəziyyəti qiymətləndirir. Müvəqqəti icra hesabatları açıqlanır, ictimaiyyətə təqdim olunur.

- Cəza tədbirləri və sanksiyalar: Planı pozan tərəflərə beynəlxalq sanksiyalar tətbiq oluna bilər. Xarici maliyyə blokadası, diplomatik təzyiq və digər tədbirlər sanksiya kimi istifadə oluna bilər.

- Güvən yaratma tədbirləri: Hər iki tərəfdən humanitar səviyyədə birlikdə işlər - mədəni mübadilə, yardım layihələri həyata keçirir. Kiçik pilot layihələr - ortaq su təchizatı, səhiyyə mərkəzlərində əməkdaşlıq yaranır.

- Müddət və mərhələlər: Plan 3 illik əsas müddətə nəzərdə tutulur. 6 aylıq, 1 illik, 2 illik yoxlama mərhələləri olur. Hər mərhələ uğurla keçərsə, növbəti mərhələyə keçid reallışar - əks halda düzəlişlər edilə bilər.

Sülh planı düqnyanın əksər dövlətləri tərəfindən bəyənilir - Katolik Kilsəsinin rəhbəri Papa XIV Leo da Prezident Trampın Qəzza ilə bağlı təqdim etdiyi sülh planını real təklif adlandırıb. “Ümid edirik ki, tərəflər bunu qəbul edəcək. Hələlik bu, real təklif kimi görünür. Atəşkəs və girovların azad edilməsi vacibdir. Ümid edirəm ki, HƏMAS müəyyən edilmiş vaxt çərçivəsində bunu qəbul edəcək”, - deyə Roma Papası vurğulayıb.

Fransa prezidenti Emmanuel Makron da ABŞ Prezidenti Donald Trampın Qəzza zolağında İsrail və HƏMAS arasında müharibəyə son qoymaq planını dəstəkləyib. O, X-də yazıb: “Mən Prezident Trampın Qəzzada müharibəni dayandırmaq və bütün girovları azad etmək öhdəliyini alqışlayıram”.

### Trampın paylaşımı - Azərbaycanın dəstəyi ön planda...

- **Palestinian Authority:** The PA said it welcomed the announcement pledged its commitment to working with the United States and partners to end the war, noting the deal “paves the way for a just peace based on the two-state solution.” (Newsweek)
- **Azerbaijan:** MFA statement: “The exchange of prisoners and hostages, and addressing humanitarian needs of the population, are vital to pave the way for long-term stabilization and political settlement through building confidence and easing tensions.” (Report Azerbaijan)
- **India:** PM Modi welcomed the deal and said it “paves the way for peace, security, and sustainable long-term development for Israel, Palestine and the region.” (X)
- **Kazakhstan:** President Tokayev spokesperson: “The plan is a unique opportunity and a crucial step toward resolving the situation in the region.” (Astana Times)

Qeyd edək ki, bu plan dünyanın bir çox ölkələri tərəifndən bəyənilib və alqışlanıb. Hətta Tramp Qəzzada münaqişəni sonlandırmaq məqsədilə irəli sürdüyü 20 maddəlik sülh planı ilə bağlı paylaşımında onun Yaxın Şərqdə sülhü bərqərar etmə yönündəki səylərinə dair müxtəlif ölkələrin bəyanatlarına yer verib. Həmin bəyanatlar arasında Azərbaycan Xarici İşlər Nazirliyinin (XİN) müvafiq açıqlaması da yer alır. Xatırladaq ki, Azərbaycan Xarici İşlər Nazirliyi ABŞ Prezidenti Donald Trampın Qəzza bölgəsində münaqişəyə son qoyulması üçün hərtərəfli planın elan edilməsini alqışlamışdı və “X” hesabında paylaşım edilmişdi. Paylaşımda qeyd edilirdi ki, “Biz ABŞ Prezidenti Donald Tramp tərəfindən Qəzza münaqişəsinə son qoyulması üçün hərtərəfli planın elan edilməsini alqışlayırıq. Davamlı və ədalətli sülh səmimi öhdəlik, qarşılıqlı etimad və beynəlxalq hüquqa hörmət tələb edir. Əsirlər və girovların mübadiləsi, əhalinin humanitar ehtiyaclarının qarşılanması etimadın yaradılması və gərginliyin azaldılması yolu ilə uzunmüddətli sabitliyə və siyasi nizamlanmaya yol açmaq üçün həyati əhəmiyyət kəsb edir. Yalnız dialoq və xoşməramlılıq yolu ilə iki dövlətli həllin əsasını təşkil edən uzunmüddətli nizamlanmaya nail olmaq olar”.

### Ərəb və İslam ölkələri də alqışlayır...

Trampın Qəzza planı ərəb və İslam ölkələri tərəfindən də dəstəklənir. Səudiyyə Ərəbistanı, İordaniya, BƏƏ, İndoneziya, Pakistan, Türkiyə, Qətər və Misirin xarici işlər nazirləri birgə bəyanat yayaraq, Donald Trampın Qəzza zolağında müharibəyə son qoymaq üçün göstərdiyi səmimi səyləri alqışlayıb və onun sülhə aparan yol tapa biləcəyinə əminlik ifadə ediblər.

Nazirlər razılığın əldə edilməsi və onun region xalqları üçün sülh, təhlükəsizlik və sabitliyi təmin edən tərzdə həyata keçirilməsi üçün Birləşmiş Ştatlar və münaqişə tərəfləri ilə müsbət, konstruktiv əlaqə saxlamağa hazır olduqlarını bir daha bəyan ediblər.

### Avropa və Vatikan “hə” deyir...

Böyük Britaniyanın baş naziri Kir Starmer də Trampın planını dəstəklədiyini bildirib. Baş nazirin ofisinin yaydığı məlumatda deyilir: “ABŞ-ın Qəzzada müharibəni bitirmək üçün yeni təşəbbüsü çox alqışlanır və mən prezident Trampa bu addımına görə minnətdaram. Biz onun döyüşləri dayandırmaq, girovları azad etmək və Qəzza xalqına təcili humanitar yardımı təmin etmək səylərini qətiyyətlə dəstəkləyirik”.

Almaniyanın xarici işlər naziri Yohann Vadeful bildirib ki, Trampın sülh planı Qəzzada dəhşətli müharibəyə son qoymaq üçün unikal fürsət təqdim edir. “Nəhayət, israillilər və fələstinlilər bu müharibənin tezliklə bitəcəyinə ümid edirlər”, - deyə Almaniya Xarici İşlər Nazirliyinin saytında dərc olunan bəyanatda qeyd olunub. Vadeful vurğulayıb ki, bu fürsəti əldən vermək olmaz.

Avropa Şurasının sədri Antonio Kosta da “sülhə real şans vermək üçün bu anı dəyərləndirməyə” çağırıb. O, sosial şəbəkədə yazıb: “Qəzzada vəziyyət dözülməzdir. Döyüşlər dayandırılmalı, bütün girovlar dərhal azad edilməlidir”.

### Dünyanın aparıcı KİV-ləri “Tramp planı”nı dəstəkləyir...

Qeyd edək ki, dünyanın aparıcı KİV-ləri də Trampın irəli sürdüyü sülh planını dəstəkləyir. “Der Spiegel”, “The Jerusalem Post” və digər qəzetlər Trampın Qəzzada sülh planını dəyərləndirib. “Washington Post” isə sülh planı ilə bağlı “Tramp Yaxın Şərqdə “Əsrin sövdələşməsi”nə çalışır” başlıqlı yazı dərc edib. “The Guardian”ın bununla bağlı yazısında isə Trampın Qəzza planı “iddialı” sayılıb. Vurğulanıb ki, ilk Prezident Trampın irəli sürdüyü, Benyamin Netanyahunun təsdiq etdiyi, dünyanın əksər dövlətlərnin bəyəndiyi 20 bəndlik plan Qəzzada iki illik münaqişəni sona çatdırmaq daha yaxşı şansdır. “Der Spiegel” isə sülh planını “Tramp “əbədi sülh” elan etdi” kimi dəyərləndirib.

***P.İSMAYILOV***

# Daha sərt məhdudiyyətlər...

## Yeni sanksiyalar paketi - say 19-a çatır

**Qərb Rusiyaya qarşı növbəti - 19-cu sanksiyalar paketini reallaşdırmaq üzrədir. Bunu Avropa Komissiyasının sədri Ursula Fon der Lyayen Aİ ölkələrinin dövlət və hökumət başçılarının Kopenhagendə keçirilən qeyri-rəsmi sammitindən sonra deyib. O bildirib ki, Avropa İttifaqı ölkələri Rusiyaya qarşı daha sərt məhdudiyyətlər tətbiq etməyi planlaşdırır. “Biz sanksiyalara yeni yanaşma təklif edirik. Biz artıq addım-addım yanaşma deyil, enerji, maliyyə xidmətləri və ticarətdə çox daha sərt tədbirlər təklif edirik”, - deyən AK rəhbəri əlavə edib ki, bu yanaşma artıq müzakirə olunan 19-cu sanksiyalar paketinin hazırlanmasında tətbiq olunur.**

### İstənilən gəlir mənbəyi...

Qeyd edək ki, sentyabrın 19-da fon der Leyen AK-nin 19-cu sanksiyalar paketi ilə bağlı təkliflərini təqdim edib. Bu paketdə yer alan mühüm məsələlər sırasına 2027-ci ilin yanvarından etibarən Rusiya maye qazının Aİ-yə idxalına qadağa, həmçinin kriptovalyuta və banklara qarşı tədbirlər daxildir.

Avropa İttifaqının (Aİ) Xarici Əlaqələr və Təhlükəsizlik Siyasəti üzrə Ali Nümayəndəsi Kaya Kallas isə Kremlin istənilən gəlir mənbəyini sanksiyaların hədəfi adlandırıb. Avropalı siyasətçinin sözlərinə görə, sanksiyalar Rusiyanın dövlət maliyyəsinə və iqtisadi artımına əhəmiyyətli təsir göstərir. Kallas bildirib ki, yeni paket Rusiyanın silah istehsalı üçün lazım olan texnologiyalara və kritik resurslara çıxışını da məhdudlaşdıracaq. Bundan başqa, Kallas Rusiyanın “Mir” ödəniş sisteminə qarşı sanksiyaları açıqlayıb. “Biz Rusiyanın pul qazandığı sahələrə zərbə vurmaq istəyirik. Bu bütün sektorlara aiddir”.

Qeyd edək ki, Avropa Komissiyasının Rusiyaya təzyiqi artırmaq istəyinə baxmayaraq, Aİ ölkələrinin heç də hamısı anti-Rusiya sanksiyalarının tətbiqini dəstəkləmir. Xarici KİV-lər yazır ki, 19-cu məhdudiyyətlər paketi tədricən blok daxilində fikir ayrılığı yaradıb. Belə ki, bir çox Mərkəzi və Şərqi Avropa daha fərqli fikirləşirlər. “Bloomberg” Avropadakı çoxsaylı daxili fikir ayrılıqları səbəbindən yaranan problemlərə də diqqət çəkib. O qeyd edib ki, buna gərgin büdcə vəziyyəti, uzanan inzibati proses, parlamentin parçalanması, siyasi ekstremistlərin aktiv müxalifəti və fikir ayrılıqları səbəb olub.

### Budəfəki hədəf: Rusiya maye qazının Aİ-yə idxalına qadağa, kriptovalyuta və banklara qarşı tədbirlər...

### Yeni paketin sərt məhdudiyyətləri...

Təklif olunan paketdə bir çox yeni məhdudiyyətlər yer almaqdadır. Hələ tam təsdiqlənməsə də mətbuatda yayılan xəbərlərdə bir neçə konkret təkliflərin yer alması diqqət çəkir. Təkliflər arasında Rusiyanın iri neft şirkətlərinə və onların treyderlərinə qarşı sanksiyalar, üçüncü ölkə şirkətlərinə ikinci dərəcəli sanksiyaların genişləndirilməsi, qiymət hədləri və çatdırılma üzərində nəzarət, banklara və enerji şirkətlərinə qarşı yeni məhdudiyyətlər, kriptovalyutalara nəzarətin gücləndirilməsi, idxal qadağalarının və tariflərinin genişləndirilməsi, Rusiya neft və qazını alan ölkələr üçün mümkün məhdudiyyətlər və bu kimi bir çox qadağalar yer alır. Bundan başqa, yayılan məlumatlara görə, Avropa texnologiyaları, o cümlədən Rusiya müdafiə sənayesi üçün komponentlər üzrə ixrac nəzarətinin gücləndirilməsi, lisenziyalaşdırılmalı olan ikili təyinatlı malların siyahısının genişləndirilməsi, sanksiyaların icrasına nəzarət üçün ümumavropa mexanizminin yaradılması və pozuntular haqqında daha sıx məlumat mübadiləsi də böyük ehtimalla yeni paketdə yer ala bilər.

### 140 milyard avroya qədər faizsiz kreditlər mənbəyi...

Müzakirə olunan məsələlərdən biri də dondurulmuş Rusiya aktivlərindən əldə olunan gəlirlərin Ukraynanın yenidən qurulmasını dəstəkləmək üçün istifadə edilməsidir. Almaniya kansleri Fridrix Mertz Aİ-nin Rusiya Mərkəzi Bankının dondurulmuş aktivlərindən müsadirə yolu ilə deyil, Ukraynaya 140 milyard avroya qədər faizsiz kreditlər mənbəyi kimi istifadə etmək planını açıq şəkildə dəstəklədiyini bildirib. “Financial Times” üçün yazdığı məqalədə o, beynəlxalq hüquq normalarına uyğun gələn və Rusiyanın bu vəsaitlərə sahibliyini formal olaraq qoruyub saxlayacaq “hüquqi cəhətdən etibarlı mexanizm”in hazırlanmasının zəruriliyini vurğulayır.

Təklif olunan model Avropa Komissiyasının bu ehtiyatlarla təmin olunmuş faizsiz istiqrazlar buraxaraq, onları Kiyevə tədricən kreditlərə çevirməsini nəzərdə tutur. Rusiyanın mülkiyyət hüquqları qorunur, lakin Rusiya Ukraynaya dəymiş ziyanı kompensasiya edənə qədər aktivlər dondurulmuş qalır.

### AK-dan çağırış...




Avropa Komissiyası Aİ ölkələrinə Rusiyadan enerji alışını dayandırmaq çağırışlarına qulaq asmağı məsləhət görüb. Qeyd edək ki, bu ilin birinci yarısında Aİ ölkələri Rusiyadan 4,5 milyard avro dəyərində LNG idxal edib. Komissiya əvvəllər qısamüddətli müqavilələrin 2026-cı ilin ortalarına qədər və bütün digər müqavilələrin 2027-ci ilin sonuna qədər dayandırılmasını təklif etmişdi. İndi bu müddət bir il qısaldılıb. Amma qərar Macarıstan və Slovakiya üçün istisna olaraq qalır - onlar daha iki il yarım Rusiya qazını “Türk axını” kəməri ilə almağa davam edəcək.

Qeyd edək ki, bu ilin iyulunda Rusiyaya qarşı 18-ci sanksiya paketi qəbul olunmuşdu. Bu paketə Rusiya neftinin “qiymət tavanı”nın bir barel üçün 47,6 dollara endirilməsi, 105 tankerə məhdudiyyətlər, “Şimal axını” ilə bağlı istənilən əməliyyata qadağa, 22 bankın “qara siyahı”ya salınması və Rusiya maliyyə təşkilatlarının Aİ ilə əməliyyatlarına tam qadağa qoyulması daxil edilmişdi.

Vurğulandığı kimi, indiyə qədər fərqli sektorları əhatə edən 18 sanksiya paketi qəbul edilib. 2022-ci ildən bəri qəbul olunan ardıcıl sanksiya paketləri Rusiyanın enerji, maliyyə, texnologiya, nəqliyyat və hərbi sənaye sahələrini əhatə edərək ölkənin beynəlxalq iqtisadi sistemdən təcrid olunmasına yönəlib. 2022-ci ildə Aİ tərəfindən Rusiyaya qarşı 8 sanksiya paketi qəbul edilib, 2023-cü ildə daha bir neçə sanksiya paketi bu siyahıya əlavə olunub. 13-cü sanksiya paketi 2024-cü ilin 23 fevralında, 14-cü paket isə həmin ilin 24 iyunda təsdiqlənib. 2024-cü ilin son sanksiya toplusu - 15-ci paket isə 16 dekabrda qüvvəyə mindi. Bu il başlananda indiyə qədər 3 sanksiya paketi qəbul edilib. Bunlardan birincisi fevralın 24-də qəbul edilmiş 16-cı paketdir. 17-ci və 18 -ci paketlər isə ard-arda qəbul olunub.

***SADİQ***

# ABŞ-Rusiya danışıqları: yeni əsrin sülh imkanı, yoxsa...

## III raund - Vaşinqton və Moskva yenidən masa arxasına oturacaq

Yeni dövrdə beynəlxalq münasibətlərdə sülhün vacibliyi danılmaz həqiqətə çevrilib. Qlobal siyasətin əsas prioritetlərindən biri kimi sülhün təmin olunması həm regional, həm də beynəlxalq əməkdaşlığın möhkəmlənməsi üçün həlledici amildir. Müasir dövrün çağırışları göstərir ki, uzun illərdir davam edən qütblərarası gərginliklər, böyük dövlətlər arasında inamsızlıq mühiti, eləcə də regional müharibələr dünya iqtisadiyyatının, beynəlxalq inteqrasiyanın və ümumilikdə, bəşəri inkişafın qarşısında ciddi maneələr yaradır. Sülhün olmaması təkcə bir regionun deyil, bütün dünyanın inkişafına, enerji təhlükəsizliyinə, qlobal ərzaq təminatına və ekoloji sabitliyə də ciddi təsir göstərir.

Bu mənada, dünyanın aparıcı güclərindən sayılan ABŞ ilə Rusiya arasındakı münasibətlər tarixi olaraq, həm əməkdaşlıq, həm də qarşıdurma dövrləri ilə yadda qalır. Xüsusilə XXI əsrin əvvəllərindən münasibətlər tamamilə “soyuq müharibə” dövrünü xatırlatmasa da, hər halda qarşılıqlı etimadın zəifliyi, maraqların toqquşması və geopolitik rəqabət özünü açıq şəkildə göstərirdi. 2014-cü ildən etibarən Ukrayna böhranı, Krımın ilhaqı və ardınca başlayan hərbi qarşıdurmalar Vaşinqton-Moskva münasibətlərini daha da gərginləşdirdi və hətta kəskinləşdirdi - ABŞ-ın tətbiq etdiyi sanksiyalar, NATO-nun Şərqə doğru genişlənməsi ilə planları, Rusiyanın isə öz mövqelərini sərtləşdirməsi bütövlükdə, iki güc mərkəzi arasındakı münasibətləri böhran həddinə çatdırdı. Xüsusi vurğulanmalıdır ki, Bayden administrasiyası dövründə bu münasibətlər daha sürətli enişlə yadda qaldı - Ukrayna müharibəsi ilə bağlı ABŞ-ın Rusiyaya qarşı sərt mövqeyi, Kiyevə hərbi və maliyyə dəstəyi, diplomatik təzyiqləri Vaşinqton-Moskva xəttində münasibətləri ən kritik həddə qədər qabartdı.

Bu ilin əvvəlindən etibarən, ABŞ-da hakimiyyət dəyişikliyi - Donald Trampın yenidən prezident kürsüsünə qayıdışı münasibətlərdə müəyyən keyfiyyət dəyişikliyinə yol açıb. Trampın yanaşması əvvəlki administrasiyadan fərqli olaraq daha çox “dialoq və qarşılıqlı razılaşma” istiqamətindədir. Təsadüfi deyil ki, Trampın prezidentliyə qayıdışından sonra Alyaskada keçirilən görüş münasibətlərdə nisbi stabilliyin əldə olunmasının ilk nümunələrindən biri kimi qiymətləndirilir. Xatırladaq ki, son 9 ayda ABŞ və Rusiya arasında artıq iki raund danışıqlar prosesi keçirilib və tərəflər hələ də mübahisəli məqamlar olsa da, ən azı dialoqu davam etdirmək iradəsi nümayiş etdiriblər.

### Rusiya anons verdi: Payızın sonuna qədər...

**Vaşinqton üçün Ukrayna məsələsi “qırmızı xətt” olaraq qalır - Moskva isə öz mövqeyindən geri çəkilmək niyyətində olmadığını nümayiş etdirir. Hər iki tərəf üçün əsas nəticə dialoqun davam etdirilməsinin mümkünlüyünə inamdır**

Qarşıdan isə görüşlərin III raundu gəlir. Bunun anonsu Rusiya tərəfindən səsləndirilib. Bu barədə Rusiya xarici işlər nazirinin müavini Sergey Ryabkov deyib. O bildirib ki, Rusiya-Amerika danışıqlarının üçüncü raundu payızın sonuna qədər baş tutacaq. “Danışıqlar payızın sonuna qədər mütləq keçiriləcək. Amma dəqiq tarix hələ yoxdur, bütün məsələlər müzakirə olunur”, - nazir müavini qeyd edib.

Xatırladaq ki, Donald Trampın Ağ Evə qayıtmasından sonra Rusiya və ABŞ prezidentləri arasında bir sıra telefon danışıqları olub. Fevralın 18-də Səudiyyə Ərəbistanında Rusiya və ABŞ nümayəndə heyətləri arasında son üç ildə ilk tammiqyaslı danışıqlar baş tutub. Onlar Ukraynada nizamlanma və Moskva ilə Vaşinqton arasında münasibətlərin bərpasına diqqət yetiriblər. Avqustun 15-də isə Alyaskada 2021-ci ildən bəri prezidentlər səviyyəsində ilk danışıqlar keçirilib.

Sentyabrın 2-də Rusiya prezidentinin köməkçisi Yuri Uşakov bildirmişdi ki, Rusiya və ABŞ xarici işlər nazirlikləri vasitəsilə növbəti məsləhətləşmələr raundu planlaşdırılır. O vurğulamışdı ki, tərəflər hələ də bir çox mübahisəli məsələləri həll etməlidir.

Beləliklə, planlaşdırılan III raund danışıqları həm regional, həm də qlobal siyasət üçün mühüm əhəmiyyət daşıyır. Ryabkovun da açıqladığı kimi, tərəflər arasında müəyyən anlaşmaların əldə olunması mümkündür. Bu baxımdan sözügedən görüş beynəlxalq ictimaiyyət tərəfindən diqqətlə izlənilir.

Çünki əldə olunacaq razılıq qlobal təhlükəsizlikdən tutmuş enerji və ərzaq böhranına qədər bir çox məsələni həll edə bilər. Əks halda, yeni gərginlik dalğası həm regionu, həm də dünyanı daha böyük təhlükələrlə üz-üzə qoya bilər.



### İlk iki raund: “Tanışlıq” mərhələsi...

ABŞ ilə Rusiya arasında keçirilən ilk iki raund danışıqlar beynəlxalq münasibətlər sistemində müəyyən gözləntilər və ehtiyatlı ümidlər doğurdu. İlk raund daha çox tərəflərin mövqelərinin təqdim olunması, qarşılıqlı narazılıqların açıq şəkildə dilə gətirilməsi və gələcək dialoqa “çərçivə” cızılması xarakteri daşıyırdı. Bu görüşdə əsas müzakirə mövzuları Ukrayna müharibəsi, strateji silahların məhdudlaşdırılması, nüvə təhlükəsizliyi, Arktikada əməkdaşlıq və enerji bazarlarında sabitlik məsələləri idi. ABŞ tərəfi Rusiyadan Ukraynadakı hərbi əməliyyatları dayandırmasını, münaqişənin diplomatik yolla həllinə üstünlük verilməsini tələb edirdi. Moskva isə Vaşinqtonu NATO-nun genişlənməsi, silah təchizatı və sanksiya siyasətinə görə ittiham edirdi.

İkinci raund isə bir qədər konstruktiv məzmunla yadda qaldı. Bu dəfə tərəflər yalnız ittihamlarla kifayətlənməyərək müəyyən texniki və praktiki məsələlərin müzakirəsinə də yer verdilər. Xüsusilə strateji sabitlik və nüvə silahlarının azaldılması üzrə minimal razılaşma əldə olunması diqqət çəkdi. Eyni zamanda, humanitar məsələlər - əsirlərin mübadiləsi, təhlükəsizlik zəmanətləri və enerji tranziti mövzuları da müzakirə olundu. ABŞ tərəfi Rusiyaya qarşı sanksiyaların yumşaldılması ilə bağlı konkret öhdəlik götürməsə də, gələcəkdə müəyyən şərtlər daxilində buna baxıla biləcəyini istisna etmədi.

Bununla belə, hər iki raund həm də tərəflərin nə qədər ziddiyyətli mövqelərə malik olduğunu göstərdi. Nəticə göstərir ki, Vaşinqton üçün Ukrayna məsələsi “qırmızı xətt” olaraq qalır - Moskva isə öz mövqeyindən geri çəkilmək niyyətində olmadığını nümayiş etdirir. Hər iki tərəf üçün əsas nəticə dialoqun davam etdirilməsinin mümkünlüyünə inamdır.

### Üçüncü raund: razılıq olsa və ya olmasa... nələr olacaq?

Üçüncü raund danışıqlarının daha çox maraq kəsb etməsi isə nəticələrin həm Avropa kontingentinin təhlükəsizliyinə, enerji bazarlarına, qlobal iqtisadi sabitliyə təsir göstərməsi ilə abğlıdır. Beynəlxalq ekspertlərin fikrincə üçüncü raundda əsas müzakirə mövzuları bunlar ola bilər:

- Ənənəvi mövzu: Ukrayna münaqişəsində hərbi əməliyyatların dayandırılması və atəşkəsin əldə olunması;
- Qlobal təhlükəsizlik üçün: NATO-Rusiya münasibətlərində eskalasiyanın qarşısının alınması;
- Silahlanma yarışına son vermək üçün: strateji hücum silahlarının məhdudlaşdırılması və yeni razılaşmanın imzalanması;
- Eləcə də: enerji bazarında sabitlik və qlobal enerji təhlükəsizliyinin təmin olunması, əsir və girovların dəyişdirilməsi, humanitar məsələlərin həlli və sairə.

Maraqlı da olsa, əsas diqqətin məhz qlobal nüvə təhlükəsizliyinə yönələcəyi güman olunur. O baxımdan ki, sentyabrın 22-də Rusiya prezidenti Vladimir Putin Təhlükəsizlik Şurasının üzvləri ilə görüşdə bildirmişdi ki, Rusiya Yeni Strateji Hücum Silahlarının Azaldılması (Yeni START) müqaviləsinin 2026-cı il fevralın 5-də müddəti bitdikdən sonra daha bir il ərzində kəmiyyət məhdudiyyətlərinə könüllü şəkildə əməl etməyə hazırdır. Əgər belə bir razılıq əldə olunarsa, bu, həm də siyasi mühitdə ciddi rahatlama yaradacaq. Bu baxımdan üçüncü raund sadəcə diplomatik görüş deyil, həm də gələcək geosiyasi balansın konturlarını müəyyən edəcək proses kimi xarakterizə olunur.

Paralel olaraq əldə olunacaq kompromis gələcək geosiyasi mənzərəyə yeni ştrixlər qazandıra bilər. Ukrayna müharibəsinin bitməsi həm də Avropa İttifaqının enerji təhlükəsizliyinə, həm də qlobal ərzaq bazarına birbaşa təsir göstərəcək. Çünki hazırda Ukrayna müharibəsi taxıl ixracatına, enerji tranzitinə və nəqliyyat dəhlizlərinə ciddi zərbə vurub.

Bu, son dövrlərdə daha çox diqqət çəkən NATO-Rusiya gərginliyini də azalda bilər. Paralel olaraq həm Avropanın, həm də ABŞ-ın Rusiyaya qarşı sanksiyaları məsələsi gündəmə gələcək - təsadüfi deyil ki, G7-nin maliyyə nazirləri Rusiyadan neft almağa davam edən ölkələrə təzyiqi artırmaq barədə razılığa gəliblər. Xarici agentliklər xəbər verir ki, bu, nazirlərin görüşünə dair birgə bəyanatda əksini tapıb - bildirilir ki, “Biz razılaşdıq ki, indi Rusiyanın əsas gəlir mənbəyi olan neft ixracına maksimum təzyiq göstərməyin vaxtıdır. Biz Rusiya neftinin alışını artırmağa davam edənləri və sanksiyalardan yayınmağa kömək edənləri hədəfə alacağıq”.

Beləliklə, razılaşma bir çox kontekstlərdə yeni mühitə start verəcək - bu amil hətta Moskvanın iqtisadiyyatında nisbi sabitlik yarada bilər.

### Ukraynanın və Avropanın mövqeyi: Kim nə istəyir?

**ABŞ ilə Rusiya arasında daha isti münasibətlər Brüsselin maraqları ilə tam uyğun gəlmir. Avropa qitəsi bir tərəfdən müharibənin dayandırılmasını arzulasa da, digər tərəfdən ABŞ-ın Moskva ilə çox yaxınlaşmasını özünün strateji maraqlarına təhlükə hesab edir**

Siyasi mütəxəssislərin fikrincə, Vaşinqton ilə Moskva arasında danışıqların mənfi çalarlara yönəlməsi isə vəziyyəti daha da çıxılmaz edə bilər - bu, beynəlxalq münasibətlər sistemində yeni gərginlik dalğasına yol açacaq. İlk növbədə, Ukrayna müharibəsi daha da uzanacaq və münaqişənin digər regionlara yayılma riski artacaq. Rusiya ilə NATO arasında birbaşa toqquşma ehtimalı isə indiyə qədər görünməmiş həddə yüksələ bilər.

Bundan əlavə, ABŞ və Rusiya arasında gərginliyin davam etməsi BMT Təhlükəsizlik Şurasının fəaliyyətini də iflic vəziyyətə salacaq. Çünki iki daimi üzv arasında konsensusun olmaması qlobal məsələlərin - Yaxın Şərq böhranından tutmuş iqlim dəyişikliyinə qədər - həllini mümkünsüz edəcək. Nəticədə, dünya daha təhlükəli və qeyri-sabit bir mərhələyə qədəm qoyacaq.

Nəhayət, ən vacib məqam - ABŞ-Rusiya danışıqlarının həssas tərəfi Ukraynanın mövqeyi ilə bağlıdır. Çünki münaqişənin əsas tərəfi məhz Ukraynadır və bu ölkənin razı olmadığı hər hansı anlaşma davamlı ola bilməz. Ukrayna rəhbərliyi indiyədək dəfələrlə bəyan edib ki, ərazi bütövlüyü tam bərpa olunmadan heç bir razılaşma qəbul edilməyəcək. Bu isə Moskvanın mövqeyi ilə ziddiyyət təşkil edir.

Paralel olaraq bu danışıqlarla bağlı Avropanın mövqeyi də xüsusi əhəmiyyət kəsb edir. Qərb poltoloqlarının fikrincə, ABŞ ilə Rusiya arasında daha isti münasibətlər Brüsselin maraqları ilə tam uyğun gəlmir. Avropa qitəsi bir tərəfdən müharibənin dayandırılmasını arzulasa da, digər tərəfdən ABŞ-ın Moskva ilə çox yaxınlaşmasını özünün strateji maraqlarına təhlükə hesab edir.

Bütün bunlar isə göstərir ki, ABŞ-Rusiya danışıqlarının ortaya çıxaracağı nəticələr yalnız iki ölkə arasındakı danışıqlar prosesi kimi məhdudlaşmır - bu proses qlobal miqyasda təhlükəsizlik arxitekturasının müəyyənləşməsində müəyyən təsiredici rola malikdir...

*Pərviz İSMAYILOV*

# Ağ Ev ştatların maliyyələşdirilməsini “dondurur”

Donald Tramp administrasiyası Demokratların başçılıq etdiyi ştatlar üçün 26 milyard dollar vəsaiti “dondurub”.

AZƏRTAC “Reuters” agentliyinə istinadla xəbər verir ki, məqsədyönlü proqramlara Konqresdə iki aparıcı Demokratın yaşadığı Nyu-Yorkdakı tranzit layihələri üçün 18 milyard dollar, Kaliforniya və İllinoys da daxil olmaqla onların nəzarətində olan 16 ştatda yaşıl enerji layihələri üçün 8 milyard dollar vəsait daxildir.

Bu arada, vitse-prezident Cey Di Vens xəbərdarlıq edib ki, “şatdaun” bir neçə gündən çox davam edərsə, administrasiya federal işçilərin ixtisarına davam edə bilər.

Bu addımlar açıq şəkildə nümayiş etdirir ki, Donald Tramp hökumətin “şatdaunundan” siyasi rəqiblərini cəzalandırmaq və ABŞ Konstitusiyası əsasında Konqresə həvalə edilmiş 7 trilyon dollarlıq federal büdcə üzərində nəzarətini genişləndirmək üzrə öz təhdidlərini yerinə yetirmək niyyətindədir.

ABŞ prezidenti çərşənbə günü axşam “Truth Social”da bunla bağlı yazıb: “Milyardlarla dollara qənaət etmək olar”.

ABŞ federal hökuməti maliyyə çatışmazlığı səbəbindən oktyabrın 1-də gecə yarısı qismən fəaliyyətini dayandırıb. Bunun əsas səbəbi ABŞ Konqresindəki hakim Respublikaçılar və müxalif Demokratlar partiyaları nümayəndələrinin səhiyyə də daxil olmaqla bir sıra xərc maddələri ilə bağlı razılığa gələ bilməməsidir. Onlar bir-birini “şatdaunu” təhrik etməkdə və onu siyasi məqsədlər üçün uzatmaqda ittiham edirlər.

Bu, 1981-ci ildən bəri hökumətin fəaliyyətini dayandırması ilə bağlı 15-ci haldır və onun nəticəsində elmi tədqiqatlar, maliyyə nəzarəti, ətraf mühitin təmizlənməsi və bir sıra digər fəaliyyətlərdə fasilələr yaranır.

Təxminən 750 min federal işçiyə işləməmək əmri verilib, hərbçilər və sərhəd-patrul agentləri maaş almadan işə başlayırlar. Veteranların İşləri Departamenti milli qəbiristanlıqlarda dəfnləri təmin edəcəyini, lakin baş daşları qoymayacağını və ya qazon biçməyəcəyini bildirib.

Donald Trampın başçılıq etdiyi Respublikaçılar Senatda 53-47 səs çoxluğuna sahibdirlər, lakin xərcləmə qanun layihələrini qəbul etmək üçün tələb olunan 60 səs baryerini aşmaq üçün onlara ən azı yeddi Demokratın dəstəyi lazımdır.



Qeyd edək ki, 35 gündən çox davam edən ABŞ hökumətinin fəaliyyətinin ən uzunmüddətli dayandırılması Donald Trampın birinci dövründə - 2018-2019-cu illərdə baş verib.

# YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir



**“Yeni Azərbaycan” qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

“Azərpoçt” MMC PDM- 0125984955, 0552004544
“Azərmətbuatyayımı” ASC - 0124411991, 0124404694
“Səma” MMC - 0125940252, 0503336969
“Pressİnform” MMC - 0703400100, 0504560835
“Qaya” MMC - 0125667780, 0502352343
“Bakmətbuat” MMC - 0124314313
“Ziya LTD” MMC - 0124977696, 0503067744

**6 aylıq abunə - 79,20 AZN**
**12 aylıq abunə - 158,40 AZN**






# Motivasiya və hədəf!

## III MDB Oyunları ilə gənclərin inkişafı...

**Respublikamız özünü dünya səviyyəli və genişmiqyaslı tədbirlərin etibarlı təşkilatçısı kimi təsdiq edib. Azərbaycan dəfələrlə dünyanın hər yerindən minlərlə tamaşaçı toplayan əhəmiyyətli idman hadisələri üçün arenaya çevrilib. Ölkəmiz sentyabrın 28-dən etibarən mühüm bir tədbirə ev sahibliyi edir. Məlumdur ki, oktyabrın 8-nə qədər Azərbaycanda III MDB Oyunları keçiriləcək. Yarışlar yeddi şəhərimizdə - Gəncə, Yevlax, Mingəçevir, Qəbələ, Şəki, Göygöl və Xankəndidə təşkil olunacaq. Qeyd edək ki, III MDB Oyunlarının uşaqlar və gənclərimizin fiziki inkişafına təsiri çoxşaxəlidir. Bu tip tədbirlər yalnız idmançıların hazırlığını və bacarıqlarını inkişaf etdirməklə kifayətlənmir, həm də onların sosial, psixoloji və əxlaqi inkişafına müsbət təsir edir. Gənclər arasında sağlam həyat tərzinin təbliği və fiziki aktivliyin artırılması, uzunmüddətli olaraq cəmiyyətin sağlamlıq səviyyəsini yüksəltməkdə mühüm rol oynayır.**

### Azərbaycana böyük etimadın göstəricisi

Mövzu barədə “Yeni Azərbaycan”a açıqlama verən Milli Məclisin Gənclər və idman komitəsinin üzvü Anar Məmmədov bildirib ki, ölkəmizdə beynəlxalq yarışların təşkil olunması həm də yerli idman infrastrukturunun inkişafına təkan verir. Deputat qeyd edib ki, bu, gənclər üçün daha yaxşı idman obyektlərinin və imkanlarının yaranmasına səbəb olacaq: “İdman müəssisələrinin təkmilləşdirilməsi və yeni texnologiyaların tətbiqi ilə gənclərin fiziki inkişafı üçün daha əlverişli şərait yaradılır. Mühüm siyasi, iqtisadi və humanitar forumlara, konfranslara, idman və musiqi yarışmalarına ev sahibliyi etməklə beynəlxalq tədbirlər məkanına çevrilən, idman ölkəsi kimi özünü təsdiq edən Azərbaycan bu günlərdə “Hər qəlbdə bir qələbə” şüarı altında III MDB Oyunlarına evsahibliyi edir. Ölkəmizin idman həyatı üçün əlamətdar olan III MDB Oyunlarının bölgələrimizdə keçirilməsi bu təşkilata üzv ölkələrin Azərbaycana böyük etimadının açıq göstəricisidir”.





Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Məqalə “Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi”nin maliyyə dəstəyi ilə “Uşaq və gənclərin fiziki və mənəvi inkişafı” istiqaməti üzrə hazırlanmışdır**


### Səmimiyyət və liderliyin gücü!

A.Məmmədovun sözlərinə görə, sentyabrın 28-də qədim Gəncə şəhərində 12 ölkədən 1619 idmançının və 2313 nümayəndə heyətinin iştirak etdiyi III MDB Oyunlarının təntənəli açılış mərasimində Prezident İlham Əliyev və Birinci xanım Mehriban Əliyevanın iştirak etməsi idmansevərlər üçün əsl bayrama çevrildi: “Açılış mərasimindən əvvəl dövlət başçısının və Birinci xanımın 44 günlük Vətən müharibəsi zamanı Gəncəyə raket hücumları nəticəsində valideynlərini, ailə üzvlərini və yaxın qohumlarını itirmiş, həmçinin xəsarət almış uşaqlarla görüşü, təntənəli açılış mərasimini uşaqlarla birlikdə izləmələri xüsusi rəmzi məna daşıyırdı. Bu addım Prezident və Birinci xanımın gənc nəsil üzərindəki diqqətini göstərən bir simvol idi. Məlumdur ki, uşaqlar müharibənin ən həssas qrupunu təşkil edir və onların psixoloji, fiziki və sosial rifahı gələcəyin sağlam cəmiyyətini qurmaq üçün son dərəcə önəmlidir. Bu görüşün həyata keçirilməsi, müharibə sonrası dövlətin bir tərəfdən müharibə qurbanlarına, digər tərəfdən isə gələcək nəsillərə olan münasibətini göstərir. Gənc nəslin bu qədər böyük faciələrdən sonra belə dövlətin qayğısını və diqqətini hiss etməsi onların gələcəkdə daha sağlam bir şəraitdə böyümələrinə səbəbdir”.

### Gənclərə ilham mənbəyi olacaq...

Deputat sonda qeyd edib ki, III MDB Oyunları Azərbaycanda keçirilən bir idman tədbiri olmaqla yanaşı, gənclərin sosial, emosional və intellektual inkişafına mühüm təsirlər göstərəcək: “Bu oyunlar, yalnız idmançılara deyil, həm də ölkənin gənc əhalisinə çoxşaxəli faydalar təmin edəcək. Gənclərin həyatı üçün böyük bir motivasiya mənbəyi olan bu cür tədbirlər, həm idman sahəsində, həm də şəxsi inkişaf baxımından önəmli dəyişikliklərə səbəb olacaq. Bir çox gənc məşhur idmançılara baxaraq, onların həyatına və təcrübələrinə diqqət edir. İdmançıların məşqləri, dözümlülük və mübarizə ruhu gənclərə öz həyatlarında da uğur qazanmaq üçün ilham mənbəyi olur. Bu oyunlar, həmçinin gəncləri yalnız fiziki deyil, həm də zehni cəhətdən sağlam qalmağa təşviq edir”.

***Səlim***

# Gizli düşmən...

**Alkoqollu içkilərin sağlamlığa mənfi təsirlərini saymaqla bitməz. Bu asılılıq müasir cəmiyyətin ən böyük problemlərindən biridir. İndi hətta gənclər və yeniyetmələr arasında da alkoqola olan meyil ciddi narahatlıq doğurur. Bu içkilərə aludəlik dünyada vaxtından əvvəl ölüm və əlilliyin mühüm risk faktorlarından biridir. Belə ki, alkoqollu içkilər beyin hüceyrələrinə və neyronlara təsir edərək, onları fəaliyyətdən saxlayır. Bir çox hallarda beyindəki nazik damarların partlamasına, qanın laxtalanmasına şərait yaradır. Spirtli içkilər, həmçinin qanın normal qaydada dövr etməsinin qarşısını aldığına görə infarktla nəticələnir. Bəzi hallarda isə beyində əzələlərin yığılmasına, şişlərə və qan təzyiqinin yaranmasına səbəb olur. Bu da bədən üzvlərinin iflic vəziyyətinə düşməsi ilə nəticələnir.**

### Dünya əhalisinin 45 faizi...

Hər zaman spirtli içkilərin sağlamlığa mənfi təsirləri barədə danışılır. Müxtəlif maarifləndirici məlumatlar verilir. Baxmayaraq ki, alkoqol qəbulu bir çox mədəniyyətlərdə və cəmiyyətlərdə ənənədir, lakin dünya əhalisinin 45 faizi, qadınların isə 55 faizi heç zaman alkoqol qəbul etməyib.

Yeri gəlmişkən, hər il oktyabrın 3-də müxtəlif ölkələrdə Dünya Alkoqolizmlə Mübarizə Günü kimi qeyd olunur. XIX əsrdə ABŞ-da həyatını sərxoşluqla mübarizəyə həsr edən ictimai xadim Con Finçin xatirəsinə həsr edilib. Həmin gün dövlət qurumları və ictimai təşkilatlar alkoqolizm problemlərinə, onun doğurduğu xəstəliklərə həsr edilmiş mühazirə, seminar və sərgilər təşkil edir, tədbirlərdə çıxış edən həkim-narkoloq, psixoloq və psixiatrlar alkoqolun sağlamlığa vurduğu zərər və ondan yaranan asılılıq barədə məlumat verirlər.




### Spirtli içkilərin fəsadları...

Spirtli içkilər insanın spermatozoidlərinə və onları istehsal edən hüceyrələrdə xoşagəlməz təsirlər yaradır. Almaniyalı həkimlər sübut ediblər ki, spirtli içkilərin acınacaqlı təsirləri, hətta onlardan istifadə etməyən üç nəslə qədər davam edir. Spirtli içkilərə qurşanan şəxslərin nəsli azalaraq tamamilə kəsilə bilir. Amerikalı alim doktor Nalin bildirib ki, bir sağlam kişidən orta hesabla on bir sağlam övlad əmələ gələ bilər. Halbuki, spirtli içkilərə qurşanan şəxsdən 1-3 nəfər belə sağlam övlad dünyaya gəlmir. Dünyaya gələn övladlar da müxtəlif ruhi və fiziki xəstəliklərə, o cümlədən infarkt, əsəbilik, dəlilik, əqlin normal inkişaf etməməsi, qan azlığı və sair kimi xəstəliklərə düçar olur, daim ruhi və fiziki çatışmazlıqlardan əziyyət çəkirlər.

### Alkoqol asılılığı olanlar içməyənlərə nisbətən 15 il az yaşayır

Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) məlumatına görə alkoqoldan sui-istifadə dünyada ölüm səbəbləri arasında 3-cü yeri tutur (birinci yerdə ürək-damar xəstəlikləri, ikinci yerdə isə onkoloji xəstəliklərdir). Alkoqoliklər içməyənlərə nisbətən 15 il az yaşayır. Onların yalnız 25 faizi 50 illik sərhəddi keçir.

### Xoş əhval-ruhiyyə yaratmaq?

ÜST-ün məlumatına görə, alkoqoldan istifadəyə vadar edən müxtəlif səbəblər - yorğunluğu çıxarmaq, depressiyadan xilas olmaq, özündə xoş əhval-ruhiyyə yaratmaq, ovqatı yüksəltmək və sair göstərilir. Lakin alkoqolun mütəmadi istifadəsi orqanizmin ondan asılılığına səbəb olur. İstifadəçilər arasında keyfiyyətsiz spirt və alkoqolun yüksək miqdarda qəbulu nəticəsində baş verən ölüm hadisələri də az deyil.

Spirtli içki alüdəçiləri bəzən bu xoşagəlməz vərdişlərini gizlətməyə çalışsalar da, alkoqolizm sadəcə, şəxsi bir məsələ deyil. Bu, geniş sosial və ailəvi təsirlərə səbəb olan böyük bir problemdir. İnsanların bu xəstəliyi sadəcə “güclü iradə çatışmazlığı” kimi görmələri onların daha çox travma və çətinliklərlə üzləşməsinə səbəb olur. Bu baxımdan spirtli içki alüdəçilərinə yardım etmək həm fərdi, həm də kollektiv məsuliyyətdir.

***Yeganə BAYRAMOVA***

# Demensiyanın erkən xəbərdarlıq əlaməti...

Kaliforniya Universitetində aparılan yeni araşdırma göstərib ki, qocalma ilə beyin tədricən formasını dəyişir və bu dəyişikliklər yaddaş və düşünmə qabiliyyətinin zəifləməsi ilə sıx bağlıdır.

“MedicalXpress” portalı xəbər verir ki, alimlər 30-97 yaş arası 2600-dən çox insanın beyin skaner təsvirlərini təhlil ediblər. Məlum olub ki, beynin aşağı və ön hissələri genişlənir, yuxarı və arxa hissələri isə büzülür. Bu dəyişikliklər idrak pozğunluğu olan şəxslərdə daha aydın görünür.

Tədqiqatçılar, xüsusilə entorinal korteksin - yaddaş üçün mühüm olan beyin bölgəsinin - bu prosesdən təsirləndiyini vurğulayırlar. Bu nahiyə Alzheimer xəstəliyi ilə bağlı zəhərli tau zülalının toplandığı ilk yerlərdən biridir. Mütəxəssislər hesab edirlər ki, beyin forması üzərində aparılan bu cür analizlər gələcəkdə demensiyanı simptomlar başlamadan illər əvvəl aşkar etməyə kömək edə bilər.

Araşdırma “Nature Communications” jurnalında dərc olunub və beynəlxalq əməkdaşlığın əhəmiyyətini bir daha önə çıxarıb.




Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

**www.yeniazerbaycan.com**
**mail@yeniazerbaycan.com**
**Ünvan:** Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
**598-37-76, 498-82-21**
**498-81-24, 498-19-84**

**İndeks: 67100**
**Lisenziya: N-B-317**
**Tiraj: 4965**
**Sifariş: 2027**
“Kapital Bank” ASC-nin Nərimanov rayon filialı
**h/h** - 33080019443900419109
**kod** - 200093
**VÖEN** - 1500486601

**Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.**

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova